# Anti-Rusiya siyasəti İrəvanı uçuruma aparır



**Münafiqin kim olduğunu hamı bilir. Sözü ilə əməli üst-üstə düşməyən adamdır. Ermənistan baş naziri Nikol Paşinyana və onun komandasına da məhz bu qiyməti vermək olar. Bir tərəfdən Rusiya ilə əlaqələri dərinləşdirəcəyinə söz verir, digər tərəfdən də rusları Hayastandan uzaqlaşdıracaq addımlar atır. Erməni baş nazirin Rusiya lideri ilə son görüşündən sonra Paşinyanın mətbuat katibinin paylaşımı belə deməyə əsas verir ki, İrəvan mühüm strateji tərəfdaşı adlandırdığı Moskvadan uzaqlaşmaq xəttinə sadiq qalır.**

*(ardı 3-cü səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 225 (30629) 13 oktyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dünya COP29-da Azərbaycanı bütün əzəməti ilə görəcək




Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən 5 milli prioritetdən birinin respublikamızın təmiz ətraf mühit və "yaşıl" artım ölkəsi olması məqsədi qarşıya mühüm vəzifə kimi qoyulub.

(ardı 8-ci səhifədə)

## Erməni lobbisi protestant keşişin ümidinə qalıb



**Xaricdəki erməni diaspor təşkilatlarının və lobbisinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində ölkəmizə qarşı təzyiqi gücləndirdikləri faktdır. Onlar hər vəchlə noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək bu mötəbər tədbiri gözdən salmağa çalışırlar. Amma bu zaman nəzərə almırlar ki, forumun məkanı Azərbaycan olsa da, özü BMT-nin tədbiridir. Ətraf mühitin mühafizəsi sahəsində dünyanın ən böyük və əlamətdar tədbiri olan bu forum Bakıda on minlərlə qonağı, o cümlədən, müxtəlif səviyyəli ekspertləri, dövlət və hökumət başçılarını, digər orqanların nümayəndələrini, qlobal şirkətlərin təmsilçilərini bir araya gətirəcək.**

*(ardı 4-cü səhifədə)*

## Milli elektron su atlası yaradılır



Səhifə ⇨ 7

## Polad magistrallarımız – Şərqdən Qərbə mötəbər körpü



**Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən illər ərzində digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da mühüm önəm daşıyan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi istiqamətində genişmiqyaslı layihələr reallaşdırılıb. Respublika daxilində həm müasir nəqliyyat infrastrukturu yaradılıb, həm də tranzit potensialı gücləndirilib. Bütün bunlar isə Azərbaycana daha da böyük həcmdə siyasi və iqtisadi dividendlər gətirib.**

*(ardı 9-cu səhifədə)*

## Qars müqaviləsi erməni millətçilərinin niyyətlərini gözlərində qoydu

**1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakının siyasi təsirindən kənarda qalan yeganə ərazi Naxçıvan idi. Bu bölgənin statusunun müəyyənləşməsi ərəfəsində onun ictimai-siyasi vəziyyəti çox mürəkkəb idi.**

(ardı 6-cı səhifədə)



## Köçəryanın "məhşər günü"



**İlahi ədalət. Ermənistanın ikinci prezidenti Robert Köçəryanla bağlı məhkəmə təqibini belə qiymətləndirmək olar. Məsələ heç də onda deyil ki, ona qarşı irəli sürülmüş ittiham doğru və ya yanlışdır, sifarişli və ya qərəzlidir. Başlıca məqam ondadır ki, Xocalı qatili, əli minlərlə azərbaycanlının qanına batmış erməni cəlladı, necə deyərlər, payını alır. Əsas məsələ bu məxluqun ömrünü dəmir barmaqlıqlar arasında çürütməsidir. Hərçənd, bu qərarın da onun törətdiyi əməllərə görə adekvat olduğunu düşünmürük.**

Məsələ bundadır ki, ötən ay Ermənistanın Kassasiya məhkəməsinin korrupsiyaya qarşı mübarizə palatası eks-prezident Robert Köçəryan, keçmiş müdafiə naziri Seyran Ohanyan və digər sabiq vəzifəli şəxslərin ittiham olunduğu cinayət işi (Cinayət Məcəlləsinin 300.1-ci maddəsi) üzrə çıxarılmış qərarı dərc edib. Eyni zamanda, adları çəkilən şəxslərə qarşı cinayət təqibinə xitam verilməsi barədə əvvəlki məhkəmə qərarı ləğv edilib. Bir qədər təfsilatı ilə desək, Kassasiya məhkəməsi bəyan edib ki, hazırkı şəraitdə birinci instansiya məhkəməsinin Robert Köçəryan, Seyran Ohanyan, Armen Gevorkyan və Yuri Xaçaturov barəsində başlanmış cinayət təqibinə xitam verilməsi barədə qərarı qanunsuzdur.

*(ardı 4-cü səhifədə)*

## Qarabağ savaşının lerikli qəhrəmanı

**44 günlük haqq savaşımızda Vətən, millət yolunda canını fəda edib bizə qələbə sevincini yaşadan qəhrəmanlardan biri də dağlar oğlu, şəhid mayor Amid Rəbbil oğlu Heydərovdur. Ölümsüzlüyə qovuşub milyonların ürəyində özünə əbədi yer edən igidin doğma Lerik rayonunda anım mərasimi keçirilib.**

*(ardı 10-cu səhifədə)*

## Keşişlikdən qovulan dahi

**Onun gündəlik qida rasionu bundan ibarət idi. O, ruhunu beləcə müalicə edirdi. Başqa cür bir saat, bir dəqiqə də Borinajda kömürçıxaranların yanında qala, onlarla birlikdə yaşaya bilməzdi. Onun ruhi tarazlığı məhz elə Borinajda pozuldu; sosial bərabərsizliyin tüğyan etdiyi bu cəhənnəm səltənətində o, vaizlik edə bilməzdi; insanlara yalan danışmaq onun xarakterinə yad idi.**

(ardı 11-ci səhifədə)



## "Adım Ələsgərdir, Göyçə mahalım"

Səhifə ⇨ 10

# İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

**Əlahəzrət!**

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2024-cü il**

# Milli Məclis Niderland parlamentinin qətnamələrini rədd edib və pisləyib

**Azərbaycan Respublikasının Milli Məclisi 2024-cü il oktyabrın 10-da Niderland Krallığı Parlamenti Nümayəndələr Palatasının qəbul etdiyi iki qətnaməni Azərbaycanı əsassız olaraq hədəf alan və Cənubi Qafqaz regionunda real vəziyyəti təhrif edən qərəzli siyasi aktlar kimi qətiyyətlə rədd edir və pisləyir.**



Bu fikirlər Azərbaycan Respublikası Milli Məclisinin həmin qətnamələrə münasibətində yer alıb.

Qeyd olunub ki, Azərbaycan ərazisində ağır cinayətlər törətməkdə, o cümlədən, terrorizm, separatizm, qəsdən adamöldürmə əməllərində və beynəlxalq humanitar hüququn digər ağır pozuntularında təqsirləndirilən şəxslərin "erməni hərbi əsirləri" kimi qələmə verilərək azadlığa buraxılmasının tələb edilməsi qanunun aliliyi prinsipinə açıq hörmətsizlikdən başqa bir şey deyildir və terrorizmin kökünün kəsilməsi, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi səylərini sarsıdır.

Erməni mədəni irsinin, guya, talan edilməsi barədə saxta ittihamların irəli sürülməsi isə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalı dövründə xalqımızın mədəni, dini və tarixi sərvətlərinin dağıdılmasına və mənimsənilməsinə göz yumulması və bunların ört-basdır edilməsi kampaniyasının tərkib hissəsi və davamıdır. Azərbaycan mədəni irsinin sistemli şəkildə məhv edilməsinə səssiz qalan Niderland Parlamenti Nümayəndələr Palatasının Azərbaycana qarşı həyata keçirdiyi növbəti ədalətsiz siyasi aksiya dərin təəssüf doğurur.

"Azərbaycan Respublikasının Milli Məclisi Niderland Parlamentinin Nümayəndələr Palatasını, eləcə də bu ölkənin rəhbər vəzifəli şəxslərini Cənubi Qafqaz bölgəsində sülh və sabitlik yaradılması səylərinə mane olan hərəkətlərə son qoymağa çağırır. Biz Niderland Krallığı da daxil olmaqla, bütün dövlətlərlə konstruktiv dialoqu və əməkdaşlığı dəstəkləyirik, lakin bu cür dialoq və əməkdaşlıq qarşılıqlı hörmətə və faktların vicdanlı etirafına əsaslanmalıdır", – deyə Milli Məclisdən bildirilib.

***XQ***

# Ermənistan baş naziri ölkəsinin öhdəliyini danır

**Ermənistan baş nazirinin oktyabrın 12-də "Sülh qovşağı: təhlükəsizlik və demokratiyanın vəhdəti" adlı forumda çıxışı zamanı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla bağlı səsləndirdiyi iddialar reallıqların təhrif olunması cəhdidir.**



Bunu Azərbaycanın XİN-in mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş nazirinin çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirib. O qeyd edib ki, üçtərəfli bəyanata istinadən kommunikasiyaların açılması məsələsində Ermənistan baş nazirinin açıqlaması bu ölkənin rəhbərliyinin üzərinə götürdüyü öhdəliklərə dair etinasızlığını növbəti dəfə nümayiş etdirir. Üçtərəfli Bəyanatın 9-cu bəndində Ermənistanın kommunikasiyaların açılması xüsusunda hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarətin hansı formada təşkil olunacağı açıq-aydın təsvir olunub.

**Açıqlamada deyilir:**

"Ümumiyyətlə, Ermənistanın üçtərəfli Bəyanatdan irəli gələn digər öhdəlikləri pozan fəaliyyətlərinə nəzər salsaq, ilk növbədə, İrəvanın 2023-cü ilin sentyabr ayınadək öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmaması, humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürməsi, ölkəmizə qarşı mina terrorunu davam etdirməsi xatırlanmalıdır.

Mətbuat katibi əlavə edib ki, Ermənistan tərəfinin hərbi əsirlərin qaytarılmadığını iddia etməsi gülüncdür. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq bütün hərbi əsirləri Ermənistan tərəfinə təhvil verib. Erməniəsilli hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə isə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil:

"Sonda bir daha Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüququn prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü vəziyyətdən nəticə çıxarmayan Ermənistan rəhbərliyini heç bir çərçivəyə sığmayan, reallıqları təhrif edən və nəticə etibarilə beynəlxalq ictimaiyyəti yanıltmağa yönələn açıqlamalardan çəkinməyə çağırırıq".

***XQ***

# Niderlandın qərəzli hücumu qəbuledilməzdir

**COP29 yaxınlaşdıqca Azərbaycana qarşı vahid mərkəzdən idarə olunan hücumlar intensivləşməkdədir. Niderland Parlamenti tərəfindən oktyabrın 10-da qəbul edilmiş sənədlər və Niderland xarici işlər nazirinin həmin sənədlərin müzakirəsi zamanı ifadə etdiyi mövqe tamamilə qəbuledilməzdir.**



Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib. Qeyd olunub ki, birincisi, bu sənədlərdə əks olunan iddialar böhtandır. İkincisi, erməni mədəni irsinin təhlükə altında olması iddiaları da heç bir əsası olmayan uydurmadır.

Açıqlamanın davamında deyilir: "Nəhayət vurğulamaq istərdik ki, qanlı müstəmləkə keçmişinə malik, islamofobiyanın geniş tüğyan etdiyi, Srebrenitsa soyqırımına görə məsuliyyət daşıyan və Boner, Sint Eustatius, Saba, Aruba, Kurasao və Sint Maarten kimi dəniz ərazilərində dekolonizasiya öhdəliklərini yerinə yetirməkdən imtina edən Niderlandın beynəlxalq hüquq və insan hüquqlarından danışmağa mənəvi haqqı yoxdur.

Bəyanat bu sözlərlə bitir: "Biz Qərbi Azərbaycan İcması olaraq Niderland hökumətindən və parlamentindən Azərbaycana qarşı ittihamları və hücumları dayandırmağı, azərbaycanlılara qarşı irqi ayrı-seçkiliyi dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik".

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 450** **Bakı şəhəri, 9 oktyabr 2024-cü il**

***"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 may tarixli 70 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1546 (Cild I); 2024, № 1, maddə 70) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Müdafiə Nazirliyində xidməti müşavirə

**Oktyabrın 12-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib.**



Videobağlantı formatında keçirilən müşavirəyə nazir müavinləri, qoşun (qüvvə) növü komandanları və müavinləri, Əlahiddə Ümumqoşun Ordunun rəhbər heyəti, baş idarə, idarə rəisləri, hərbi birlik və birləşmə komandirləri, həmçinin Milli Müdafiə Universitetinin və tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin rektorları cəlb olunub.

Ali Baş Komandanın yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında və digər çıxışlarında səsləndirdiyi fikirləri müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri hərbi gücümüzün və döyüş imkanımızın artırılmasının, eləcə də peşəkar kadr hazırlığının başlıca məqsədimiz olduğunu xüsusi vurğulayıb.

Müşavirədə şərti sərhəddə əməliyyat şəraiti və qoşunlarda bölmələrin gündəlik fəaliyyəti təhlil edilib, mövcud vəziyyətlə bağlı məruzələr dinlənilib.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, ayıq-sayıqlığın artırılması, eləcə də revanşist qüvvələrin şərti sərhəddə ehtimal olunan bütün təxribatlarına qarşı preventiv tədbirlərin görülməsinə hazır olmaqla bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Azərbaycan Ordusunun arsenalına daxil edilən yeni silah, texnika və hava hücum vasitələrinin imkanlarının, düzgün istismarının, həmçinin gecə və gündüz şəraitində effektiv döyüş tətbiqinin keçirilən təlimlərdə dərindən öyrənilməsinin əsas tələblərdən biri olduğu müşavirə iştirakçılarının nəzərinə çatdırılıb.

Dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu qeyd edən nazir, xüsusilə qış dövründə bölmələrin maddi-texniki və tibb təminatı məsələlərinə diqqət yetirilməsinin zəruriliyini bildirib.

***XQ***

# Diaspor Komitəsinin sədri Malayziyada

**Malayziyada səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bu ölkənin milli birlik nazirinin müavini xanım senator Sarasvati Kandasami ilə görüşüb.**




Nazir müavini bu səfəri iki ölkə arasında münasibətlərin artan xətt üzrə inkişafının göstəricisi kimi qiymətləndirib, Malayziya Birlik Nazirliyinin tarixi və fəaliyyət istiqamətləri haqqında məlumat verib.

Fuad Muradov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan dövlətinin diaspor siyasəti, komitənin fəaliyyəti, xaricdə yaşayan soydaşlarımızın milli kimliklərini unutmaması üçün həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Malayziya Tərcümə və Kitab İnstitutunda keçirilən görüşdə qurumun rəhbəri Nur Amin Əhməd Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Malayziyadakı səfirliyi ilə sıx əməkdaşlıqdan məmnun olduğunu bildirib. Bu günlərdə çapdan çıxan və Azərbaycan ediblərinin əsərlərindən ibarət olan "Ürəkdə yazı" adlı kitabı üçtərəfli əməkdaşlığın səmərəli nəticəsi adlandırıb.

Səfər çərçivəsində Komitə sədri Malayziyanın Dövlət Teleradiosuna və Cənub-Şərqi Asiya regionunun nüfuzlu "Awani Global" televiziyasına müsahibə verib. Azərbaycan–Malayziya münasibətlərinin hazırkı səviyyəsi və inkişaf perspektivləri, COP29, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu, Qarabağ münaqişəsi, rəsmi Bakının Cənubi Qafqazda sülh və təhlükəsizlik naminə planlarından bəhs edib.

Daha bir görüş Malaya Universitetinin və Putra Malaya Universitetinin professor və müəllim heyəti ilə olub, Azərbaycan haqqında təqdimatlar edilib.

***XQ***

# 15 Oktyabr Azərbaycan xalqı üçün əlamətdar tarixdir

**İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

***Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətindən***



Mərhum Vaqif Səmədoğlu demiş, "Günün baxtına bir bax". İyirmi əsr ilin, ayın adi günlərindən biri olasan, sonra gəlib Azərbaycan xalqını möhtəşəm zəfərlərə aparan iki möhtəşəm seçkinin keçirildiyi gün kimi yadda qalasan. Yəni oktyabrın 15-i təkcə bizi bəxtəvər eləməyib, elə özü də bəxtəvər gündür ki, əlli milyonluq xalq hər il bu tarixi ehtiramla yada salır.

Etiraf edək ki, 2003-cü ilin oktyabrında ümummilli liderimizin məlum müraciətini eşidəndə həmin tarixi sənədi növbəti və adi bir siyasi çağırış kimi dəyərləndirənlər bəlkə də yüzlərlə idi. Ancaq cənab Prezident İlham Əliyev 2020-ci ilin payızında hər axşam bir neçə kəndin və ya bir şəhərin düşmən tapdağından azad edildiyini xəbər verəndə " Heydər Əliyev bu günləri nəzərdə tuturmuş" deyənlər artıq milyonlarla idi.

Xalq 2003-cü il oktyabrın 15-də nə üçün İlham Əliyevə səs vermişdi? Çünki insanlar inanırdılar ki, o, atasının siyasi kursunu davam etdirəcək. Onun atasının işləyib hazırladığı siyasi kurs isə Azərbaycanı vətəndaş müharibəsindən qurtarmış, ölkəmizdəki xaos və anarxiyaya son qoymuş, yetmiş ildən sonra bərpa etdiyimiz dövlət müstəqilliyimizi yenidən itirməyimizin qarşısını almış, himayədarlarının köməyi ilə hər gün yeni-yeni ərazilərimizi işğal edən Ermənistanla atəşkəsə nail olmuş, mötəbər beynəlxalq təşkilatlarla əlaqələr yaratmış, ölkədə demokratik seçkilər keçirilməsi ənənəsini yaratmış, iqtisadi dirçəlişi hədəfləyən və beynəlxalq aləmdəki dostlarımızın çoxaldılması məqsədilə "Əsrin müqaviləsi" adlı nəhəng neft sazişinin imzalanmasına nail olmuşdu. Xalq bütün bunları yaxşı görürdü və ona görə də cənab İlham Əliyevdən başqa kimsəə səs verə bilməzdi. Vermədi də.

İlham Əliyevin ilk dəfə prezident seçilməsindən sonrakı beş il ərzində Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf etmiş və Azərbaycan tarixə 2003–2008-ci illərdə iqtisadi cəhətdən ən sürətlə inkişaf etmiş ölkə kimi daxil oldu. Bu, böyük nailiyyətdir. Ölkəmiz həmin beş il ərzində böyük yol keçə, böyük uğurlar əldə edə bildi. İqtisadiyyat 2,6 dəfə, sənaye potensialı 2,5 dəfə artdı. Yoxsulluğun səviyyəsi 3–4 dəfə aşağı düşdü, büdcə xərcləri 10 dəfədən çox artdı. Ölkədə böyük sosial proqramlar icra edilməyə başlandı. Bir sözlə, həmin beş il ərzində Azərbaycan çox böyük addımlar atdığına görə, xalq bu möhkəm zəmin əsasında gələcəyə ümidlərlə baxırdı.

2008-ci il oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkiləri isə müstəqil ölkəmizin tarixində yeni səhifə açdı. Prezidentliyə namizədlərin sayının çoxluğuna baxmayaraq, ölkə əhalisi ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyevi yenidən ən ali mövqedə – Prezident kürsüsündə görmək istədi. Cənab İlham Əliyev şəffaf və demokratik seçkidə 88,73 faiz səs toplayaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Xatırladaq ki, "Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir"– deyən Prezident İlham Əliyev 2008-ci ilin prezident seçkilərinə də bu amalı rəhbər tutaraq qatılmışdı. Məhz Azərbaycan xalqının rəğbəti sayəsində İlham Əliyev 2008-ci ilin 15 oktyabrında keçirilən prezident seçkilərinin əsas favoriti olaraq siyasi mübarizədən qalib çıxdı. Xalq böyük səs çoxluğu ilə onu dəstəklədi və səsini ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısına verdi.

Tarixçilərin fikrincə, ölkəmizdə keçirilmiş 2008-ci il prezident seçkiləri regionda və dünyada böyük rezonans doğurmuşdu. Şəffaflığı ilə diqqəti çəkən bu seçkilər müstəqil Azərbaycanın tarixinə ən demokratik seçki kimi daxil olmuşdu. Qeyd edilir ki, xalqın yenidən İlham Əliyevə etimad göstərməsi ötən beş ildə onun həyata keçirdiyi siyasətin uğurları ilə bağlı idi.

Azərbaycan mətbuatının 2008-ci ilin oktyabrındakı materiallarını vərəqləyəndə belə bir arqumentə rast gəlirik: "Böyük uğurla başa çatan prezident seçkilərində, gözlənildiyi kimi, xalqın seçimi dəyişmədi. 2003-cü il prezident seçkilərində tərəqqiyə, inkişafa, ulu öndər Heydər Əliyev siyasətinə səs verənlər yenə də bu yola dəstək oldular. Seçkilərin nəticələri ilə bağlı "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin, AVCİA-nın, eləcə də, Hüquqi və Demokratik İslahatlar Mərkəzinin keçirdikləri "exit-poll"un nəticələrinə görə də, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyev seçicilərin 88,8 faiz səsini qazandı".

Seçkilərdə iştirak etmiş beynəlxalq müşahidəçilər deyirdilər ki, Azərbaycanda səsvermənin demokratik və şəffaf keçirilməsi üçün lazım olan bütün tədbirlər görülmüşdü. İstər beynəlxalq, istər yerli müşahidəçilərin çoxluq təşkil etməsi, istərsə də məntəqələrdə veb-kameraların quraşdırılması, bir daha deməyə əsas verdi ki, bu seçkilər, həqiqətən də, tam şəffaf və ədalətli keçirildi. 15 oktyabr prezident seçkiləri bir daha sübut etdi ki, Azərbaycan demokratik bir ölkə olmaqla özünəməxsus seçki ənənəsi formalaşdırmağı bacarır.

2008-ci il seçkiləri sübut etdi ki, Yeni Azərbaycan Partiyasının namizədi ölkədə hamıdan yüksək nüfuza və mükəmməl reytinqə malikdir. O, bütün siyasi opponentlərindən fərqli olaraq sınaqlardan çıxmış siyasətə xidmət edir, ulu öndər Heydər Əliyev siyasi kursuna dair baxışlar sisteminə istinadən fəaliyyət göstərir. Seçkinin nəticələri həm də belə bir reallığı ifadə etmişdi ki, cənab İlham Əliyev xarizmatik liderdir və onun mütərəqqi siyasi keyfiyyətləri insanların ona olan dərin inamında özünü büruzə verir.

O, birinci seçkidən sonra olduğu kimi 2008-ci ildə də özünün deyil, xalqın iradəsinin qalib gəldiyini söyləmişdi: "Mənə yenidən böyük etimad göstərmiş, məni Prezident vəzifəsinə seçmiş bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını yenidən əmin edirəm ki, mən bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı üçün öz səylərimi əsirgəməyəcəyəm".

Cənab Prezident ikinci müddətə seçildikdən sonrakı andiçmə mərasimində demişdir: "Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan, möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir".

Ölkəmizin yeni tarix dərsliklərini yazanların fikrincə, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin bütün istiqamətləri milli maraqlarımızın təmin olunmasına, Azərbaycan xalqının mənafelərinin qorunmasına xidmət edir. Ancaq onun xarici siyasəti, xüsusən, işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi istiqamətində gördüyü işlər daha yüksək qiymətləndirilməlidir. Cənab Prezident, həmişə olduğu kimi, 2008-ci il seçkilərindən sonra da həmin məsələdə qətiyyətli idi: "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaq. Dağlıq Qarabağa heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcək".

Məlum olduğu kimi, 2008-ci il seçkilərindən sonra Azərbaycanın iqtisadi uğurları daha da böyüdü. İqtisadi inkişafına görə, dünyada lider olan Azərbaycanın dövlət büdcəsi, valyuta ehtiyatları, ölkəmizə sərmayə qoyuluşlarının həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası "Duing business" hesabatında Azərbaycanı 2008-ci ilin ən islahatçı ölkəsi elan etdi.

Dövlət başçımızın yürütdüyü daxili siyasətin uğurlu nəticəsidir ki, onun prezidentliyinin ikinci dövründə ölkədə 800 min yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə endirilmiş, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində dövlət proqramları icra edilmişdi. Azərbaycanda qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı olmuşdu.

Həmin dövrdə biz Asiyanı Avropa ilə birləşdirəcək Bakı –Tbilisi – Qars dəmir yolu xəttinin, Oğuz – Qəbələ – Bakı su kəmərinin çəkilməsi kimi iri regional və ölkədaxili layihələrin icrasına nail olduq. Bu dövrdə azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənavi dayağına çevrildi, milli ləyaqət, milli qürur, dini tolerantlıq uğurlarımızın əsas şərtləri oldu.

Biz həmin milli qürurun, milli ləyaqətin nəticələrini işğaldan azad edilmiş Füzulidə Beynəlxalq Hava Limanının açılması zamanı da gördük, Şuşada çoxsaylı yerli və beynəlxalq tədbirlərin keçirilməsi zamanı da. Ancaq fikrimizcə milli ləyaqətimizin böyük hərflərlə yazılacaq ən ali nümunəsi Azərbaycan və Türkiyə prezidentlərinin 2021-ci il iyunun 15-də Şuşada imzaladıqları Azərbaycan və Türkiyə arasında Müttəfiqlik münasibətləri haqqında Bəyannamədir.

Məlum olduğu kimi, bu il də ölkəmizdə prezident seçkiləri keçirilib. Xalq yenə də öz sınanılmış liderinə səs verib. Ancaq inanırıq ki, sabah, o biri gün və ya nə zamansa prezident seçkiləri keçirilsə, xalqın seçimi yenə də "dəmir yumruğ"un sahibi İlham Əliyev olacaq.

***İttifaq MİRZƏBƏYLİ***

---

# Anti-Rusiya siyasəti İrəvanı uçuruma aparır

**(əvvəli 1-ci səhifədə)**



Ermənistan geosiyasi yolayrıcında çapalayır. İrəvanın siyasi palitrasında aydın rənglərin müşahidə edilməməsi ondan xəbər verir ki, haylar kəskin seçim sançısı yaşayırlar. 2018-ci ildə Qərb dairələrinin köməyilə hakimiyyətə gələn indiki İrəvan hakimiyyəti iki stulda oturmağa çalışır. İndi Rusiyanın çətiri altından çıxıb Qərb kuratorlarının qoltuğu altına sığınmağa can atan İrəvan siyasi janqlyorluqla məşğuldur. Bu qeyri-adekvat davranış özünü MDB dövlət başçılarının son görüşündə Ermənistanın təşkilatın iki yekun bəyanatını imzalamamasında göstərdi. Ermənistanda geniş yayılmış daxili imkansızlıq və çaşqınlıq fonunda Paşinyan hökumətinin bu demarşı birmənalı qarşılanmadı. Məsələn, politoloq Stepan Danielyan bildirib ki, bu addım vektorun və xarici siyasət təlimatlarının olmamasının sübutudur: "Bu, iki stulda oturmaq cəhdidir, əslində, bir stulda oturmaq da yox, ayaq üstə dayanmaq cəhdidir".

Hər iki bəyanatın təhlükəsizlik məsələlərinə aid olduğunu xatırladan Danielyan qeyd edib ki, Ermənistan təhlükəsizliklə bağlı çətin vəziyyətdə qalıb: "Ölkə KTMT-də iştirakını dondurub, NATO ilə anlaşılmaz təlimlər keçirir, ABŞ və Aİ yekdilliklə bəyan edirlər ki, Ermənistanın təhlükəsizliyini təmin edə bilməz. Onun sözlərinə görə, hazırda Ermənistan mahiyyətcə heç bir blokda deyil və təhlükəsizlik sistemi olmayan ölkəyə çevrilib, indiki hakimiyyət isə bu sistemin olmamasını böyük nailiyyət hesab edir. Erməni politoloq vurğulayıb ki, Paşinyan hökumətinin fikrincə, sapdan asılı qalmaq suverenliyin ən yüksək təzahürüdür. Yəni MDB-nin işində iştirak edən Ermənistan zəruri bəyanatlardan uzaq dayanmaqla okeanın o tayına xoş gəlməyə çalışır.

İndi İrəvan elə təəssürat yaratmağa cəhd göstərir ki, guya, o Qərbin Cənubi Qafqaz regionundan ənənəvi aktorların, ilk növbədə Rusiyanın uzaqlaşdırılması planının iştirakçısı deyil. Amma əməlləri, niyyətləri bunun tam əksini təsdiqləyir. Məsələn, bu günlərdə Caliber.az diplomatik mənbələrə istinadən yazıb ki, Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan sentyabrın 30-da Brüsseldə keçirilən görüşdə İrəvanın "NATO-nun yeni cənub cinahı" olmağa hazır olduğunu bildirib. O, Ermənistanda hava bazalarının tikintisini və raketdən müdafiə bölmələrinin yerləşdirilməsini təşviq etmək niyyətini vurğulayıb. Bu bazalar, Qriqoryanın sözlərinə görə, NATO-nun Çevik Yerləşdirmə Qüvvələrinin qoşunlarını, o cümlədən quru, hava və xüsusi bölmələri qəbul etməyə hazır olacaq. ABŞ və Fransanın İrəvanın bu təşəbbüsünü fəal dəstəklədikləri bildirilir.

Elə Paşinyanın mətbuat katibi Nazeli Baqdasaryanın son paylaşımı da İrəvanın anti-Rusiya siyasətini təsdiqləyir. Erməni qadın məmurun Nikol Paşinyanın Rusiya prezidenti Vladimir Putinlə görüşü ilə bağlı paylaşımında yazıb ki, Ermənistan baş naziri Rusiya prezidenti ilə görüşündə "Dünyanın kəsişməsi" proqramının təfərrüatlarını təqdim edərək ona müvafiq broşuranı təqdim edib. O, həmçinin qeyd edib ki, Ermənistan hökumətinin regional kommunikasiyalarla bağlı mühakiməsi həm qapalı, həm də açıq formatda eynidir. Amma Rusiya Baş nazirinin müavini Aleksey Overçukun TASS agentliyinə verdiyi son müsahibədəki sözləri bunun tam əksini göstərir. Overçuk bildirib ki, Ermənistan üçtərəfli Bəyanatdan formal olaraq geri çəkilməyib və imzasını da geri götürməyib, lakin eyni zamanda, artıq iki ildir ki, baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun fəaliyyətində heç bir hərəkət yoxdur. Yəni kommunikasiyalarla bağlı erməni tərəfinin "mühakimələrimiz eynidir" tezisi iz azdırmaqdan başqa bir şey deyil.

Bundan əlavə Baqdarsaryan bildirib ki, Paşinyan Rusiya prezidenti ilə görüşün nəticələrini müsbət qiymətləndirir: "Geniş spektrli məsələlər müzakirə edilib, enerji, təhsil və humanitar sahələrlə bağlı konkret razılaşmalar əldə olunub". Mətbuat katibinin sözlərinə görə, görüşdə 2025-ci il yanvarın 1-dən Ermənistan milli təhlükəsizlik xidmətinin (MTX) sərhəd qoşunlarının Ermənistan–İran və Ermənistan–Türkiyə dövlət sərhədlərinin qorunmasında da iştirak edəcəyi, Ermənistan–İran dövlət sərhədinin sərhəd-nəzarət məntəqəsində isə Ermənistan MTX-nin sərhəd qoşunlarının tam şəkildə bu xidməti həyata keçirəcəyi barədə razılıq əldə olunub. Baqdarsaryan sonda vurğulayıb ki, Paşinyan Ermənistan müstəqilliyi əldə etdikdən sonra Rusiyanın Ermənistan ilə İran arasında dövlət sərhəd nəzarəti məntəqəsində göstərdiyi xidmətə görə prezident Putinə təşəkkür edib.

Rusiya tərəfdən bu görüşün nəticələri barədə hər hansı bir rəsmi açıqlama verilməyib. Cari ilin may ayında Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdi ki, Vladimir Putin və Nikol Paşinyan Rusiya sərhədçilərinin Ermənistanın bir sıra rayonlarından çıxarılması barədə razılığa gəliblər. Amma son görüş barədə açıqlama olmasa da, aydındır ki, bu görüşdə qəbul olunan qərar Moskvanın ürəyincə deyil. Çünki şimal qonşumuzda da görürürlər ki, İrəvanın Rusiya sərhədçilərini Ermənistan-Türkiyə və Ermənisan-İran sərhədindən uzaqlaşdırmaq istəyi ümumi planın tərkib hissədir. Xatırladaq ki, cari ilin avqust ayında Rusiya sərhədçiləri İrəvanın Zvartnots hava limanını tərk ediblər. Aydındır ki, Paşinyan hökuməti bütün bu prosesləri həyata keçirməklə sırf Qərbin sifarişini yerinə yetirir və bunlar Aİ-nin Ermənistandakı müşahidə missiyasının gücləndirilməsi və genişləndirilməsi fonunda baş verir.

Ermənistanda düşünürlər ki, İrəvan bu gün dövlət sərhədinin mühafizəsini müstəqil şəkildə təmin edə bilmir, xüsusilə də Rusiyanın dəstəyi olmadan istər İran, istərsə də Türkiyə ilə sərhədlərin müstəqil şəkildə müdafiəsini təşkil etmək Ermənistan üçün çox çətindir. Hayastanın ekspertləri vurğulayırlar ki, sərhədlərin mühafizəsi üçün müəyyən sayda mütəxəssis tələb olunur. Bundan başqa, erməni mütəxəssislərin sözlərinə görə, Rusiya sərhədçilərinin geri çəkilməsi ilə insidentlər və təxribatlar qaçılmaz olacaq və bu faktın gözardı edilməsi gözlənilməz nəticələrə, o cümlədən dövlətçiliyin itirilməsinə səbəb ola bilər. Ancaq belə görünür ki, belə perspektiv Paşinyan hökumətini narahat etmir, sifariş verilib və yerinə yetirmək lazımdır. Ancaq bütün bunları nəyin bahasına edəcək, onu yaxın gələcək göstərəcək.

***S.ELAY***
***XQ***

# Köçəryanın “məhşər günü”

## *Paşinyanın “eks ovu” davam edir*





(əvvəli 1-ci səhifədə)

Yəni, sabiq dövlət başçısı və digər şəxslərə aid edilən hərəkətlərdə Cinayət Məcəlləsinin başqa maddəsi ilə nəzərdə tutulmuş cinayət əlamətlərinin olduğu nəzərə alınaraq, işə Korrupsiyaya qarşı mübarizə məhkəməsində baxılacaq. Deməli, ekslər məhşər ayağına çəkilir. Bu, öz yerində. Maraqlısı Köçəryanın başına gələnlərə həyasızcasına verdiyi reaksiyadadır.

Beləliklə, R.Köçəryan özünün həm baş nazir, həm də prezident postunu tutduğunu və bu vəzifələrin heç də şirin olmadığını bildirib. Bu deyimdə Ermənistanın hazırkı baş naziri Nikol Paşinyana qarşı subliminal ittiham mesajı var. Çünki Köçəryan deyib ki, vəzifənin şirinliyi barədə qənaətə yalnız görməmiş insanlar gələ bilərlər: “Bu, onların son arzusu olacaq”, – deyən eks-prezidentin sözlərinə görə, 2008-ci il aprelin 9-dan indiyədək siyasətlə məşğul olmayıb, amma 2018-ci ildə siyasət onu narahat etməyə başlayıb. Yəqin, fərqinə vardınız ki, Köçəryan Paşinyanın hakimiyyətə gəldiyi 2018-ci ili nəzərdə tutur: “Ölkə elə təhlükə altında idi, elə fəlakətlər oldu ki, bütün bunlar məni siyasətə qayıtmağa məcbur etdi. Bu təhlükələr aradan qalxana qədər mənim və mənim komandamın siyasətlə məşğul olmaq hüququ var”.

Məsələ ondadır ki, Köçəryan, həqiqətən, 2018-ci ildən aktiv siyasətdədir. Ona qədər isə buna ehtiyac duymayıb. Çünki cinayət ortağı Serj Sarkisyan prezident postunda idi. Yəni, ölkə Paşinyan hakimiyyətə gələnədək, bu tandemin şəxsi mülkünə çevrilmişdi. Deməli, Robertin siyasət səhnəsində xüsusi canfəşanlığına ehtiyac duyulmurdu. Paşinyan hakimiyyətə gəlməsəydi, böyük ehtimalla Sarkisyan yerini Köçəryana verəcəkdi və “Qarabağ klanı” deyilən qatil qruplaşma Ermənistanın hakimiyyət səhnəsini zəbt etmiş durumda qalacaqdı. Lakin Nikol hər şeyi alt-üst etdi və həmin gündən həm Köçəryanın, həm də Sarkisyanın qara günləri başladı.

Bəli, Köçəryan hazırda qara gün yaşayır ki, indiyədək baş vurmadığı ucuz populizmi işə salır. Guya ki, siyasətlə məşğul olur və guya, siyasi fəaliyyətinə görə təqiblərə məruz qalır. O, istəyir ki, özü ətrafında şou yaratsın. Bu səbəbdən deyir ki, barəsindəki məhkəmə çərçivəsində yaşananlar absurd janrına aid məsələlərdir. Heç şübhəsiz, Köçəryan absurddan baş çıxaracaq qədər yetkindir, çünki hakimiyyət postunda olarkən, məhz buna üstünlük verib.

Yeri gəlmişkən, qeyd edək ki, R.Köçəryan Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın istefasından sonra 1998-ci ildə hakimiyyətə yiyələnib və on il ölkəyə rəhbərlik edib. Maraqlı məqam isə ondadır ki, o, prezident postuna əyləşəndə bu vəzifə o qədər də dividendli deyildi. Çünki Ermənistanın siyasi quruluşu elə idi ki, ölkənin baş naziri və parlament sədri daha səlahiyyətli mövqe tuturdu. Köçəryan isə yerini onların qətlə yetirilməsi nəticəsində möhkəmləndirdi. Söhbət 1999-cu ilin parlament terrorundan gedir. Həmin terror nəticəsində spiker Karen Dəmirçyan və baş nazir Vazgen Sarkisyan başda olmaqla, 8 nəfər öldürüldü. O adamlar ki, Azərbaycanla sülhün tərəfdarı idilər və bunun üçün güzəştlərə getmək niyyətlərini açıqlamışdılar. Köçəryanın prezident postunda möhkəmlənməsi ilə siyasi səhnəyə reallıq hissini itirmiş, tamamilə Rusiyadan asılı olan tam bir əndazəsiz Ermənistan atıldı və uzun müddət Azərbaycanla danışıqlar prosesində manipulyasiyalara yol verdi...

Əlqərəz, hazırda, necə deyərlər, Köçəryanın quyruğu qapı arasındadır və açır sandığı, tökür pambığı. Məsələn, o bildirir ki, özü ilə bağlı iş üç il Konstitusiya məhkəməsində olub. “Konstitusiya məhkəməsinin tərkibinin dəyişdirilməsi əməliyyatı başa çatıb. Sonra Konstitusiya məhkəməsi çox qəribə qərar verib. Belə desək, 3 il davam edən əməliyyat hazırlanıb”, – deyən eks-prezidentin sözlərindən belə çıxıb ki, Paşinyan iqtidarı əvvəlcə Konstitusiya məhkəməsinin tərkibinin dəyişdirilməsinə girişib və prosesi üç ilə həll edib. Göründüyü kimi, o, Ermənistanın hazırkı hüquq sisteminin bərbadlığını da ortaya qoyub.

İkinci prezident Korrupsiyaya qarşı mübarizə məhkəməsindəki işə toxunaraq bunları vurğulayıb: “Hər şey açıq olacaq. Bu məhkəmədə harada oturduğumu gördünüzmü? Məncə, bu iş həllini tapmaq üçün bu formada məhkəməyə təqdim edilib. Lakin indiki vəziyyətdə sadəcə olaraq hüquqi həll yoxdur. Hakim prosesi necə aparacaq, bilmirəm. Gözləyək, hakimin adından danışa bilmərəm. Əgər cəsarəti çatırsa, işdən əl çəksin”.

Korrupsiyaya qarşı mübarizə məhkəməsində aparılan iş üzrə təyin olunmuş hakimin əvvəllər iqtidarda olan “Vətəndaş sazişi” partiyasının üzvü olmasına toxunan R.Köçəryan vurğulayıb ki, bu məhkəmə iclası davam edərsə, hakimin ondan imtina etməsi üçün vəsatət veriləcək. “Yenidən həbs olunacağınızdan qorxmursunuzmu?” sualına isə R.Köçəryan belə cavab verib: “Mənim belə şeylərdən qorxmadığımı görmürsünüz?”.

Qeyd edək ki, Ermənistanın sabiq prezidenti “İndi ədalət varmı?” sualına “Ədalət varmı?” sualı ilə cavab verərək deyib ki, il yarımdan çoxdur qeyri-qanuni, mövcud olmayan bir maddə ilə həbs olunub və hələ də nə prokurorluq, nə də başqa qurum ondan üzr istəyib: “Üstəlik, hansısa məqsədlə, hiylə işlətməklə bu işi yenidən məhkəməyə qaytarmağa davam edirlər. Baş verənlər hüquqi dələduzluqdur. Özü də təkcə bu işlə bağlı deyil. Siz həbslərin və siyasi təqiblərin sayını görürsünüz”.

Əlbəttə, R.Köçəryan oxu atıb yayı gizlətməklə məşğuldur. Əslində, o, bir sıra həqiqətləri dilə gətirir, yaxud onlar barədə eyham şəklində danışır. Eks-prezidentin “hansısa məqsədlə” məntiqi bundan xəbər verir. Durum ondan ibarətdir ki, baş nazir N.Paşinyan administrasiyası Ermənistan üçün çətin vəziyyətlərdə ekslərə yüklənmək təbiətinə malikdir. Ölkədəki vəziyyətdəki ənənəvi gərginlik bir qədər əndazədən çıxan kimi, hazırkı erməni iqtidarı diqqəti Ermənistanın keçmiş rəhbərlərinə yönəldir. Ona görə ki, Nikol və tərəfdarları bu kəsimin xalq içərisində nifrət və hiddət qazandığını bilir. Onlar qəzəbi körükləməklə, diqqəti öz yarıtmazlıqlarından yayındırırlar. Heç şübhəsiz, indi də eyni vəziyyətdir. Digər tərəfdən, Paşinyan hakimiyyəti ömrünü ekslərin yenidən hakimiyyətə yiyələnmə ehtimalı ilə sürdürür. Ona görə də istər Köçəryanı, istərsə də Sarkisyanı daimi təzyiq altında saxlayır. Nikol və komandası yaxşı anlayır ki, bu iki şəxs Rusiyanın Ermənistandakı maşalarıdır. Ona görə də anti-Rusiya ritorikasına baş vuranda onları “yada salır”. Heç şübhəsiz, Köçəryanla bağlı hazırkı məhkəmə oyunu da bunun nəticəsidir.

Sonda onu deyək ki, 2018-ci ildə İrəvanın birinci instansiya məhkəməsi Ermənistan istintaq xidmətinin vəsatətini təmin edərək, R.Köçəryan barəsində həbs qətimkan tədbiri seçmişdi. Köçəryan 2008-ci il 1 mart hadisələri ilə bağlı cinayət işi üzrə Cinayət Məcəlləsinin 300.1 maddəsinin 1-ci hissəsi üzrə, başqa şəxslərlə ilkin sövdələşməyə gələrək, Ermənistanda Konstitusiya quruluşunu devirməkdə ittiham olunmuşdu. Bu maddə üzrə 10 ildən 15 ilədək həbs cəza tədbiri nəzərdə tutulur. 2019-cu ildə isə Ermənistan xüsusi istintaq xidməti (XİX) tərəfindən R.Köçəryana qarşı yeni ittiham "xüsusilə böyük məbləğdə rüşvət alma" maddəsi üzrə ittiham irəli sürülmüşdü.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Erməni lobbisi protestant keşişin ümidinə qalıb

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən burada söhbət iqlim dəyişikliyi kimi, bütövlükdə, planeti təhdid edən vacib məsələdən gedir. Amma, yox, onlar hər şeyi göz önünə almağa hazırdırlar. Təki tədbir Azərbaycanda yüksək səviyyədə keçirilməsin, onun iştirakçılarının sayı az, əsassız tənqid səsləndirənlərin, beynəlxalq mediada COP29-u qaralayan yazıların sayı çox olsun. Anti-Azərbaycan cəbhəsinin “döyüşçüləri” bu məqsədə nail olmaq üçün hər kəsdən yararlanmağa çalışırlar. Onların son olaraq xidmətindən istifadə etdikləri amerikalı pastor (protestant kilsələrində keşiş–S.H.), “Well Versed Word”ün yaradıcısı Cim Qarlou olub.

Anti-Azərbaycan dairələr tərəfindən hazırlandığı və altına C.Qarlounun imzasının qoyulduğu şübhə doğurmayan açıqlamada deyilir: “Bir pastor kimi, mən ABŞ-dəki bütün xristianları Azərbaycanda keçiriləcək COP29-u boykot etməyə və bu konfransın yerinin dəyişdirilməsini tələb etməyə çağırıram”. O, dərhal bu çağırışı etməsinin səbəbini izah etməyə çalışıb. Məsələ yenə də 2020-ci ildəki 44 günlük Vətən müharibəsinin və 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərinin üstünə gəlib çıxıb. Yenə də köhnə bayatılar zümzümə edilib. Burada açar sözlər “etnik və dini təmizləmə”, “erməni mülki şəxslərin və siyasi liderlərin əsirlikdə saxlanılması”, “Ermənistanla sülh sazişinin imzalanmaması” və sairdir.

Təbii ki, diqqətli oxucu söhbətin nədən getdiyini dərhal başa düşəcək. Pastor isə bir qədər də irəli gedərək deyib: “Azərbaycan tərəfi öz torpağında etnik və dini təmizləmə siyasətini davam etdirdiyi bir vaxtda, guya, erməni xalqı ilə sülh prosesi ilə məşğuldur. Biz onların xoş niyyətlə sülh danışıqları apardıqlarına qətiyyən inanmırıq. Bu proses davam edərkən Azərbaycan erməni mülki şəxsləri və siyasi liderləri əsirlikdə saxlayır. Təxminən, 50 il pastor və siyasi şərhçi təcrübəsinə malik biri kimi mən Birləşmiş Ştatlardakı bütün xristianları bu konfransı boykot etməyə və ən pis halda tədbirin keçiriləcəyi məkanın dəyişdirilməsini tələb etməyə çağırıram. Beynəlxalq ictimaiyyət bu konfransda iştirak etməkdənsə, məhbusların geri qaytarılmasını və Artsax qaçqınlarının sülh və əmin-amanlıq içində öz sevimli vətənlərinə (?) qayıtmalarını tələb etməlidir”.

Bəli, COP29 kimi irimiqyaslı tədbirin keçirilməsi evsahibi ölkə üçün qürur mənbəyi olmaqla yanaşı, həm də təşkilati və intellektual resursların səfərbər edilməsini tələb edən nəhəng çağırışdır. Lakin göründüyü kimi, forumun keçirilməsi ilə bağlı bütün problemləri həll edərkən ölkəmiz siyasi xarakterli əlavə çağırışla üzləşib. Bu ilin iyun ayından ölkəmizə qarşı qara piar kampaniyasına start verən qüvvələr son günlər daha da fəallaşıblar. Onların düşmənçilik hərəkətləri müxtəlif üsullarla həyata keçirilir, lakin daha populyar olan qərəzli yazıların yazılmasıdır. Bu da təsadüfi deyil. Çünki media olduqca güclü silahdır.

Ümumiyyətlə, anti-Azərbaycan şəbəkənin bu kampaniyasının istər erməni əsilli, istərsə də ermənipərəst mövqedən çıxış edən şəxslər tərəfindən həyata keçirildiyini müəyyən etmək çətin deyil. Onlar sistematik olaraq dünya ictimaiyyətini siyasi səbəblərə görə COP29-u boykot etməyə çağırırlar. Kampaniyanın əsas məqsədləri ölkəmizin nüfuzunu aşağı salmaq, imicini ləkələmək, COP29-un Bakıda keçirilməsinin qarşısını almaq, konfransdan Azərbaycana qarşı siyasi təzyiq vasitəsi kimi istifadə etmək, ələlxüsus, istintaq altında olan Qarabağdakı keçmiş separatçı rejimin “qlavarlar”larını, başqa sözlə desək, sülh və insanlıq əleyhinə cinayətlər törədənlərin azad edilməsinə nail olmaqdır.

Pastor C.Qarlounun fikirlərinə gəldikdə isə xatırlatmaq yerinə düşər ki, hazırda istintaq təcridxanalarında saxlanılan və barələrində ədalət mühakiməsinin çıxaracağı hökmü gözləyən həmin şəxslər 1992–2020-ci illərdə Ermənistanın işğalı zamanı Azərbaycanın Qarabağ bölgəsinin ərazisində törətdikləri cinayətlərə görə ittiham olunurlar. Bu ittihamlara təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması və ya başlanması, silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüququn pozulması, silahlı münaqişə zamanı hərəkətsizlik və ya cinayət əmri vermək, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, bu məqsədlə təlimlərin keçirilməsi, qəsdən adam öldürmə, qanunla nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması daxildir.

Uzun illər ərazilərimizdə separatçılıqla məşğul olmuş, qondarma rejim yaratmış, minlərlə soydaşımızın ölümünə, yaralanmasına, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olmuş, təbii sərvətlərimizi talamış, soyqırımı, urbisid, kultursid... törətmiş separatçı rejim başçılarının cəzasız qalması əbədi davam edə bilməzdi. Onlar bu cinayətləri törətməkdə şübhəli bilinərək saxlanılıblar, əgər təqsirləri istintaq və daha sonra məhkəmə orqanları tərəfindən sübuta yetiriləcəksə, qanun çərçivəsində cəzalandırma olacaq. Məsələ bu qədər açıq-aydın olsa da,




dünya erməniləri, onların pulla ələ aldığı şəxslər cəzasızlıq mühiti yaratmaq istəyi ilə həbs olunanları geri qaytarmaq üçün var güclə hərəkətə keçiblər.

Amma biz onların arzu və istəklərini ürəklərində qoyacağıq. Elə bu günlərdə qondarma qurumun “prezidentləri” olmuş Arkadi Qukasyanın, Bako Saakyanın, Arayik Arutyunyanın, sabiq “xarici işlər naziri” David Babayanın, eləcə də “parlament sədri” David İşxanyanın, general David Manukyanın və digərlərinin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb. Baş Prokurorluğun İstintaq İdarəsinin vəsatətlərinə və baş prokurorun təqdimatlarına Binəqədi Rayon Məhkəməsi tərəfindən baxılıb. Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb.

Dünən Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş nazirinin oktyabrın 12-də keçirilmiş “Sülh qovşağı: təhlükəsizlik və demokratiyanın vəhdəti” adlı forumda çıxışı zamanı dediklərinə münasibəti də ölkəmizin bu məsələdə geri addım atmayacağının daha bir göstəricisi oldu. A.Hacızadə qeyd etdi ki, Ermənistan tərəfinin hərbi əsirlərin qaytarılmadığını iddia etməsi gülüncdür. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq bütün hərbi əsirləri Ermənistan tərəfinə təhvil verib. Erməni əsilli hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə isə Azərbaycan hər hansı öhdəliyə malik deyil.

**Politoloq Yeganə Hacıyeva** XQ-yə açıqlamasında bildirdi ki, anti-Azərbaycan cəbhəsi ölkəmizin adı ətrafında müxtəlif dezinformasiyalar yaymaqla, insan hüquqlarının durumunun pis olması görüntüsünü yaratmaqla beynəlxalq aləmdə bizə qarşı təzyiqləri artırmağa çalışır. Aparılan davamlı təbliğatda əsas hədəf kimi COP29-un ölkəmizdə keçirilməsi seçilib: “Bunun da bir neçə izahı var. Azərbaycanın təqdimatında COP29 çərçivəsində iqlim təşəbbüslərinin yerli



və beynəlxalq səviyyədə siyasi, iqtisadi və sosial iştirakçılıqla stimullaşdırılması aparılır. Daha öncəki bu tip tədbirlərdən fərqli olaraq yerli və beynəlxalq təcrübənin öyrənilməsi, iqlim dəyişikliyinin fəsadlarını önləyəcək faydalı təşəbbüslərin meydana çıxarılması prosesi həyata keçirilir. COP29-un əvvəlki tədbirlərdən fərqi mütərəqqi nümunə olmasıdır”.

Ekspert qeyd etdi ki, ölkəmizə hücumlarda informasiya diversiyalarına böyük önəm verilir. Bu hücümlar müxtəlif müstəvilərdə həyata keçirilir. Bu, COP konfranslarına yönəlmiş ən aqressiv hücum kimi də qiymətləndirilməlidir.

Onu da bildirək ki, anti-Azərbaycan dairələrin fəaliyyətinin nəticəsi olaraq, Norveçin baş naziri Yonas Qar Störenin COP29-da iştirakdan imtina etməsinə dair məlumat yayılıb. Bu isə suallar doğurmaya bilməz, çünki Norveç dünyanın ən böyük neft-qaz hasil edən ölkələrindən biridir. Ətraf mühitin və iqlimin qorunmasında belə dövlətlərin iştirakı vacibdir. Nəzərə almaq lazımdır ki, iqlim dəyişikliyi bütün dünya ölkələrinə təsir edir. Üstəlik, Norveçin özündə hələ də həllini tapmayan bir çox ekoloji problemlər var. Yonas Qar Störenin COP29-da iştirakdan imtinası da siyasi qərardır. Onun bu qlobal sammitə qatılmaq istəməməsi deməyə əsas verir ki, baş nazir planetin gələcəyi naminə işləmək və öz ölkəsinin ekologiyasını yaxşılaşdırmaq imkanından özünü kənara çəkir. Çünki iqlim dəyişikliyi ilə bağlı ən mühüm qərarlar COP29-da qəbul olunacaq.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bununla bağlı bildirdi ki, Norveç təmsilçiləri COP29-da iqlim dəyişikliyi ilə bağlı baxışlarını beynəlxalq aləmə ta-



nıtmaq imkanından özlərini məhrum etdilər. Onun sözlərinə görə, hansısa ölkə, o cümlədən Norveç iqlim dəyişikliyi ilə bağlı keçiriləcək tədbirə qatılmırsa, bu, həmin dövlətin seçimidir: “Norveçin tədbirə qatılmamasının iki səbəbi ola bilər. Birinci səbəb siyasidir. Yəni, Norveçin Azərbaycanla münasibətlərə önəm verməməsidir. Bu şimal dövləti bir neçə il əvvəl Bakıdakı səfirliyinin fəaliyyətini də dayandırmış, onun ən böyük neft şirkəti olan “Statoil” “Əsrin müqavilə”sindəki payını satmışdı. İkinci səbəb Oslonun iqlim dəyikliyi mövzusu ilə maraqlanmamasıdır. Əgər Norveçin COP29-a qatılmaması Azərbaycanın siyasəti ilə bağlıdırsa, bu, məntiqi yanaşma deyil. Çünki Bakı toplantıya sadəcə evsahibliyi edir. Tədbir BMT-nin tədbiridir, onun himayəsi altında keçirilir”.

E.Şahinoğlunun sözlərinə görə, belə çıxır ki, Norveç BMT tədbirini saymır. Halbuki, bölgənin əsas neft və qaz istehsalçılarından biri olan Norveç özü iqlim dəyişikliyi mövzusuna maraq göstərməlidir. Çünki Avropada ən çox neft və qaz hasil edən, ekologiyaya zərbə vuran, kontinenti çirkləndirən ölkə Norveçdir: “Norveç milyardlarla vəsait qazanır, amma ekologiya, iqlim dəyişikliyi probleminə etinasız yanaşır. Oslo təmsilçiləri bu addımı atmaqla COP29-da iqlim dəyişikliyi ilə bağlı baxışlarını beynəlxalq aləmə tanıtmaq imkanından özlərini məhrum etdilər”.

***Səxavət HƏMİD***
***XQ***

# Naxçıvan yüksəliş yolunda

## Davamlı inkişafın uğurları

**Naxçıvan Muxtar Respublikasında ilin 9 ayı ərzində görülmüş işlərə dair hesabat yığıncağında iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov qazanılmış uğurlardan və qarşıdakı ayların önəmli vəzifələrindən söz açıb.**




Natiq bildirib ki, 9 ayda özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Belə ki, hesabat dövründə sahibkarlara 76 lisenziya verilib, büdcəyə 43,6 min manat vəsait ödənilib. Ötən ilin eyni dövrü ilə müqayisədə Muxtar Respublikada vergi daxilolmaları 36,9 milyon manat və ya 30,6 faiz, məcburi dövlət sosial sığorta daxilolmaları 8,7 milyon manat və ya 8,2 faiz, işsizlik sığortası fonduna daxilolmalar 313,2 min manat və ya 11,1 faiz, icbari tibbi sığorta daxilolmaları 2,7 milyon manat və ya 14,9 faiz artıb.

Nazir müavini əlavə edib ki, ilin əvvəli ilə müqayisədə 1 oktyabr 2024-cü il tarixə vergi ödəyicilərinin sayı 32,6 faiz artaraq 20 min 553olub. 1 yanvar 2023-cü illə müqayisədə aktiv VÖ-nin sayı 61,8 faiz, qeydiyyatda olan obyektlərin sayı 21,4 faiz, ƏDV ödəyicilərinin sayı 78,1 faiz, qeydiyyatda olan Online NKA sayı 73,3 dəfə, qeydiyyatda olan aktiv POS-terminalların sayı 4,2 dəfə, aktiv bank hesablarının sayı 23,6 faiz artıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş Naxçıvan şəhəri, Şərur, Ordubad və Babək rayonlarında vergi ödəyicilərinə xidmət mərkəzlərinin istifadəyə verilməsi vaxtından əvvəl tam icra edilib və vergi ödəyicilərinin istifadəsinə verilib.

Ötən dövr ərzində muxtar respublikanın müvafiq qurumları tərəfindən verilmiş 3307 icazə reyestrdə qeydiyyata alınıb. Qeydiyyata alınmış icazələr ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 dəfə, verilmiş icazələrdən büdcəyə daxilolmalar isə 2,1 dəfə artıb.

# Elm, təhsil və sənayenin ortaq hədəfləri



**Naxçıvan Dövlət Universitetində "İxracyönlü sənayenin inkişafı: sənayeləşmə siyasəti və infrastruktur təchizatları" mövzusunda respublika elmi konfransı keçirilib.**

Əvvəlcə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilən sərgiyə baxış olub. Məclisin açılışında Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, bu gün ali məktəblərin qarşısına qoyulan tələblər və əsas meyarlar iqtisadiyyat və sənayeləşmə ilə bağlıdır. Bu baxımdan konfransın mahiyyətini yüksək qiymətləndirən rektor universitetin İqtisadiyyat fakültəsində ixtisasların və strateji hədəflərin əmək bazarının tələblərinə uyğun qurulması istiqamətində işlərin davam etdiyini bildirib. Onun sözlərinə görə, ali təhsil ocağının sahibkarlıq müəssisələri ilə qurulan səmərəli əməkdaşlıqları imkan verir ki, təhsilalanlar əmək bazarının tələblərinə uyğun kadr kimi formalaşsın.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavin Abbas İsmayılov Azərbaycanda ixracyönlü sənayenin inkişafı ilə bağlı həyata keçirilən islahatların və sosial inkişaf üçün yeniliklərin əhəmiyyətindən danışıb. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun baş direktoru Nazim Müzəffərli rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verərək, iqtisadi sahədə aparılan elmi tədqiqatlardan bəhs edib. Alim Naxçıvan Dövlət Universiteti ilə iqtisadiyyat sahəsində birgə əməkdaşlığın əhəmiyyətindən danışıb.

"Ləzzət Group" MMC-nin sahibkarı Teymur Rzayev 1995-ci ildən etibarən dünyanın bir çox ölkəsi ilə əməkdaşlığı olan şirkətin keçdiyi inkişaf yolundan, muxtar respublika iqtisadiyyatına verdiyi töhfədən bəhs edib. Qeyd olunub ki, şirkətin Naxçıvan Dövlət Universiteti ilə sıx əlaqələri mövcuddur və ali təhsil ocağının məzunları müəssisədə səmərəli fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun professoru Fuad Qənbərovun "Zəngəzur dəhlizinin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına təsiri", Naxçıvan Dövlət Universitetinin Beynəlxalq ticarət və menecment kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımovun "Naxçıvan Muxtar Respublikasında ixracyönlü sənayenin inkişafı yeni iqtisadi reallıqlar müstəvisində" mövzusunda çıxışları dinlənilib.

Konfransda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına həsr olunan videoçarx izlənilib. Sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb.

Konfrans ənənəvi və onlayn formatda 3 elmi bölmədə 6 panel müzakirələrlə işini davam etdirib, 20-yə yaxın ali təhsil müəssisəsinin elm adamları tərəfindən 44 mövzu ətrafında elmi məqalələrin mühazirəsi dinlənilib.

# Kəndlərin elektrik şəbəkəsi yeniləşdirilir

**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 20 kəndin 10 və 0,4 kilovoltluq elektrik şəbəkəsinin layihələndirilərək yenidən qurulması nəzərdə tutulub.**



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Xalq qəzeti"nə bildirilib ki, bununla bağlı Energetika Xidməti tərəfindən ilkin olaraq dövlət satınalınması həyata keçirilib. Culfa rayonunun Yaycı, Babək rayonunun Qahab, Şahbuz rayonunun Kolanı, Şərur rayonunun Xanlıqlar və Sədərək rayonunun Qaraağac kəndlərində topoqrafiya işləri aparılıb, layihələndirmə işlərinə başlanılıb. Digər nəzərdə tutulan 15 kəndin elektrik təsərrüfatının yenidən qurulması üçün müvafiq tender elan edilib.

Ümumiyyətlə, muxtar respublikanda kəndlərin elektrik təsərrüfatının yenidən qurulması üçün Xidmətin vəsaiti hesabına dövlət satınalmaları həyata keçirilərək, mal-materiallar alınıb. Alınan müasir SİP kabellər və aksesuarları, güc transformatorları, izolyatorlar, kabel ucluqları, tikinti materialları və digər avadanlıqlar muxtar respublika üzrə şəhər və rayon elektrik şəbəkələrinə göndərilib.

Bunlardan əlavə, ötən əsrin sonlarından istismar olunan hava elektrik verilişi xətləri yenilənəcək, istismar müddəti bitmiş taxta dirəklər dəmir-metal dirəklərlə əvəz olunacaq. Nəticədə abonentlər daha keyfiyyətli, dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq, şəbəkələrdə qəza və açılmaların sayı minimuma endiriləcək, elektrik enerjisinin texniki itkiləri azalacaq.

***Səbuhi HƏSƏNOV***
***XQ-nin Naxçıvan müxbiri***

# "Şuşa şəhərinin İslam memarlıq irsi"

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı, ICESCO-nun dəstəyi ilə şəhərdə keçirilən "Şuşa şəhərinin İslam memarlıq irsi" adlı simpoziumun açılış mərasimində Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, UNESCO-nun nümayəndəsi Pietro Laureano, ICESCO rəsmisi Bilal Çələbi çıxış edərək, Şuşa memarlığının özəlliyindən danışıb, İslam dünyası memarlığının tarixi və önəmi baxımından bu tədbirin memarlıq sahəsinin inkişafı üçün böyük töhfə olacağını bildiriblər.**





Rəsmi hissədən sonra simpozium panel müzakirələrlə işini davam etdirib. Sessiyalarda "Tarixi şəhər toxumasının regenerasiyası", "Abidələrin müasir həyatı" mövzularında təqdimatlar, moderator və auditoriya müzakirələri olub. Memarlar təcrübələrini bölüşərək, fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, simpoziumda Azərbaycanla yanaşı, Türkiyə, Misir, BƏƏ, Tunis, Keniya, İordaniya, İtaliya, Mərakeş, Səudiyyə Ərəbistanı və Böyük Britaniyadan olan 80-dən çox memar iştirak edir. Simpoziumun ilk günü – oktyabrın 11-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İcraçı direktoru Tural Novruzov və qoruğun memarları əcnəbi memarları Şuşa şəhərinin tarixi-memarlıq abidələri, bərpa olunan məscidləri, qala divarları ilə yaxından tanış ediblər. Qədim tarixi mədəniyyət abidələri ilə zəngin olan Şuşa şəhərinin bərpası istiqamətində bu gün həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri və abadlıq, quruculuq, yenidənqurma işlərinin davam etdirilməsi barədə qonaqlara geniş məlumat verilib, şəhər gəzintisi təşkil olunub.

**XQ**

Zəfər marafonunun 17-ci günü

# Vətən müharibəsinin xronikası: 13 oktyabr





**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

• Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası sıradan çıxarılıb. Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib, 1-ci motoatıcı alayın bir bölüyədək canlı qüvvəsi pusquya salınıb. Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal altındakı ərazilərimizə doğru hərəkət edən könüllülərin bir qrupu atəş zərbəsi ilə məhv edilib.



• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə Ermənistanın xüsusi qəddarlıqla Gəncə şəhərini atəşə tutmasını, mülki şəxsləri hədəfə almasını və işğalçının öz ərazisindən Azərbaycanı hədəfə almasını şərh edərkən bu çirkin siyasətin anlaşılan olduğunu bildirib: "Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür. Bu dəfə də bütün cəbhəboyu Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək bir neçə şəhər və kəndimizi işğaldan azad etmişdir və işğaldan azadetmə əməliyyatımız uğurla davam edir. Bu gün səhər mənə verilən məlumata görə, Azərbaycan Ordusu bu istiqamətdə daha böyük uğurlara imza atdı".

Ali Baş Komandan İlham Əliyev daha sonra Ermənistanın bu xain hücumu ilə onun münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək məqsədi güddüyünü vurğulayıb. Ölkə rəhbəri işğalçının Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tutmasını da məhz onun bu çirkin niyyətilə əlaqələndirib. Dövlətimizin başçısı bu məqamla bağlı deyib: "Fəqət mən demişdim ki, bizim qisasımız döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir. Əməliyyatın ilk günlərindən bütün hərbi hədəflər bir daha nəzərdən keçirildi və bizim dəqiq, sərrast atışlarımız bu hədəfləri məhv etdi. Erməni ordusuna çox böyük zərər vuruldu, 200-dən çox tank, 2 "S-300" hava hücumuna qarşı qurğu, bir çox başqa texnika məhv edildi, 33 tank və digər texnika qənimət kimi götürüldü".

Prezident İlham Əliyev müsahibədə Dağlıq Qarabağın müstəqilliyi ilə bağlı Ermənistanın cəhdlərinin yersiz və bunun onların özləri üçün zərərli olduğunu vurğulayıb. Qeyd edib ki, ilk növbədə, heç bir ölkə Azərbaycanın ayrılmaz hissəsi olan və beynəlxalq hüquq baxımından Azərbaycana mənsub Dağlıq Qarabağa müstəqillik verməyəcək, onu tanımayacaq. Belə olan halda, bu cəhdlər səmərəsiz qalacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb: "Minsk qrupuna həmsədrlik edən ölkələr bizim ərazi bütövlüyümüzü tanıyır. Avropa İttifaqı ilə bizim "Tərəfdaşlıq prioritetləri" adlı sənəd paraflanmışdır. Orada Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək göstərilir. Yəni mən inanmıram ki, hər hansı bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanısın. Çünki bundan heç bir saat keçməmiş bu ölkə ilə biz bütün diplomatik əlaqələrimizi kəsərik. Bu, mütləqdir. Ona görə Ermənistanın bu cəhdləri, sadəcə olaraq, daxilə, yəni, öz ictimaiyyətinə hesablanıb ki, sanki bunlar da hər hansı bir diplomatik fəaliyyətdədirlər".

• Baş Prokurorluğun məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 13-ü saat 12:00-dək 42 mülki şəxs həlak olub, 206 nəfər isə xəsarət alıb, 1479 ev, 66 çoxmənzilli yaşayış binası və 241 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

• Azərbaycan əsgəri Hünər Məmmədov silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevin köməyi ilə düşmənin 7 tankını, 1 PDM-ini, silah-sursat dolu 1 avtomobil texnikasını və 2 müşahidə məntəqəsini məhv edib.

• Müdafiə Nazirliyi işğaldan azad edilən Hadrut qəsəbəsinin videogörüntülərini yayıb. Xatırladaq ki, Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad olunub.

• Ermənistanın müharibə cinayətləri davam edir. Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan ordusu Ağcabədi rayonunun ərazisini atəşə tutur. Rayonun yaşayış məntəqələrinin ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində sakinlərə məxsus evlərə, yardımçı binalara və digər obyektlərə, elektrik və qaz təsərrüfatlarına ziyan dəyir.

Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəf alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ordumuz düşmənin hücumlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhəboyu əks-hücum əməliyyatına başlayıb.

***XQ***

*Qars müqaviləsi – 103*

# Qars müqaviləsi erməni millətçilərinin niyyətlərini gözlərində qoydu

(əvvəli 1-ci səhifədə)

Bir tərəfdən, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində gərginliyin davam etməsi, digər tərəfdən, Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında gedən pərdəarxası oyunlar Naxçıvanın Azərbaycan SSR-in tərkibində qalmasının qəti həllini uzadırdı. Azərbaycanın bolşevik rəhbərliyinin Moskvanın diktəsinə tabe olduğu şəraitdə Rusiya–Ermənistan sövdələşməsinə qarşı mübarizədə Naxçıvan əhalisinin güvəndiyi yeganə qüvvə 1920-ci ilin iyun ayından bölgədə yerləşən türk qoşunları idi.

1920-ci ilin noyabrında Bakıda olmuş Rusiyanın bolşevik hökumətinin milli işlər üzrə komissarı İosif Stalin Naxçıvanı, eləcə də Zəngəzuru Ermənistanın sovetləşdiriləcəyi təqdirdə ona verməyi vəd etmişdi. Ermənistan sovetləşəndən sonra bu planın həyata keçirilməsinə başlandı. 1920-ci il noyabrın 30-da Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə AK (b)P MK siyasi və təşkilat bürolarının birgə iclasında Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsi barədə qərar qəbul olundu.

Həmin qərar Nəriman Nərimanovun 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında söylədiyi nitqində təsdiq olundu. Bundan əlavə, 2 dekabr 1920-ci ildə sovet Rusiyası ilə sovet Ermənistanı arasında bağlanmış sazişə görə, Moskva İrəvan quberniyasının bütün ərazilərini, o cümlədən, Naxçıvan rayonunu sovet Ermənistanın ərazisi kimi tanımışdı. Beləliklə, Azərbaycanın Türkiyə ilə birbaşa sərhədinin itirilməsi təhlükəsi yaranmışdı.

Bu və digər ziddiyyətləri aradan qaldırmaq üçün 1921-ci il fevral–mart aylarında Moskvada konfrans çağırılmışdı. Nəticə olaraq, 1921-ci ilin martın 16-da imzalanmış Sovet–Türkiyə müqaviləsinin 3 bəndinə əsasən, Naxçıvana, gələcəkdə bu ərazinin üçüncü tərəfə verilməməsi şərtilə, Azərbaycan SSR-in protektoratı altında muxtariyyət verilmişdi. 1921-ci ildə Qərbi Zəngəzurun Ermənistana verilməsi şəraitində Naxçıvanın muxtariyyəti Azərbaycana Türkiyə ilə kiçik də olsa sərhədin saxlanmasına imkan vermişdi.

16 mart 1921-ci il tarixli Sovet–Türkiyə Moskva müqaviləsinin müddəalarını həyata keçirmək və Türkiyənin Cənubi Qafqazın 3 sovet respublikası ilə münasibətlərini tənzimləmək üçün yeni konfransın çağırılmasına ehtiyac yaranmışdı. Moskva ilə Ankara arasındakı fəal diplomatik yazışmalar nəticəsində Qars bu konfransın keçiriləcəyi yer seçilmişdi.

Qars konfransı ərəfəsində Sovet Rusiyası Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilənin imzalanmasına çalışırdı. Ermənistan isə 3 Cənubi Qafqaz respublikasının iştirakı ilə gələcək konfransın Moskva razılaşmasının davamı olacağını anlayaraq ərazi məsələləri ilə bağlı maddələri təftiş edirdi. Belə ki, 15 aprel 1921-ci ildə Ermənistan SSR xalq xarici işlər komissarı, Moskva konfransında erməni nümayəndə heyətinin rəhbəri Aleksandr Bekzadyan RSFSR Xarici İşlər Komissarlığına və RK (b) P Mərkəzi Komitəsinə geniş bəyanatla müraciət etmişdi.

Bekzadyan Moskva müqaviləsinin Ermənistanın milli maraqlarına qarşı olduğunu qeyd etmiş, guya, “Sovet Ermənistanı hesabına türklərə güzəştləri” bəyənməmişdi. A. Bekzadyan bəyanatda Naxçıvan və Şərur–Dərələyəzə dair ciddi iddialar irəli sürmüşdü: “ Naxçıvan və Şərur–Dərələyəz məsələsində Rusiya nümayəndə heyəti öz mövqelərini müdafiə etməkdə lazımi əzmkarlıq göstərmədi və türk nümayəndə heyətinə bu əraziləri müsəlman əhalisinin himayədarı kimi çıxış etməyə icazə verdi”.

Ermənistanın xarici işlər komissarı hesab edirdi ki, konfransda Naxçıvan və Şərur–Dərələyəz məsələlərinin həlli ilə bağlı qəbul edilmiş qərarlar, guya, Ermənistanı “ona məxsus olan Zəngəzuru normal idarə etmək imkanından” məhrum edir. Ermənistan tərəfi Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün Naxçıvana muxtariyyət verilməsi məsələsində Türkiyənin təminatçı kimi çıxış etməsinin Sovet Ermənistanına qarşı yönəldiyini bəyan edirdi.

Bəyanatda vurğulanırdı ki, guya, türklərə ərazilərin verilməsi erməni xalqına və bolşeviklərin elan etdiyi millətlərin öz müqəddəratını təyinetmə prinsipinə ağır zərbə vurmuşdur. A. Bekzadyanın bu etiraz bəyanatından sonra Ermənistan K(b)P Mərkəzi Komitəsi 1921-ci il mayın 16-da keçirilmiş plenumunda Ermənistan xalq xarici işlər komissarının Ermənistan nümayəndə heyətinin Rusiya–Türkiyə danışıqlarında iştirakı ilə bağlı məruzəsini dinləmiş və onun fəaliyyətini bəyənmişdi.

A.Bekzadyanın RK(b)P Mərkəzi Komitəsinə və RSFSR XXİK-na yazılı müraciətindən əsəbiləşən sovet Rusiyasının xalq xarici işlər komissarı Georqi Çiçerin 21 aprel 1921-ci ildə Ermənistanın sovet Rusiyasındakı səlahiyyətli nümayəndəsi Saak Ter-Qabrielyana məktubla müraciət edərək ittihamları əsassız saymış və qeyd etmişdir ki, erməni nümayəndə heyəti danışıqlar prosesindən xəbərdar olub, lakin danışıqlar aparılarkən onlar heç vaxt etirazla çıxış etməyiblər.

Çiçerin Moskva danışıqlarında güzəştlərin qarşılıqlı olduğunu və RK (b)P Mərkəzi Komitəsinin qərarı ilə edildiyini xüsusi qeyd edərək, bunlar barədə Bekzadyanın əvvəlcədən məlumatlandırıldığını qeyd etmişdir. A.Bekzadyanın yazılı müraciətində günahı Rusiya nümayəndə heyətinin üzərinə atmaq və özünü bütün məsuliyyətdən azad etmək cəhdləri isə G.Çiçerini xüsusilə qəzəbləndirmişdi.

7 may 1921-ci ildə Tiflisdə Cənubi Qafqaz respublikalarının nümayəndələrinin birgə iclasında Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilənin imzalanması barədə qərar qəbul edilmişdi. Bu qərara əsasən, gələcək Qars danışıqlarının və müqavilənin əsasını 16 mart 1921-ci il tarixli Rusiya–Türkiyə müqaviləsi təşkil etməli idi.

AK(b)P MK siyasi bürosunun 26 avqust 1921-ci il tarixli qərarı ilə Behbut Şahtaxtinski Qars konfransında Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi təyin edilmişdi. Maraqlıdır ki, əvvəlcə Ermənistan nümayəndə heyəti Türkiyə hökumətinin konfransa rəsmi dəvətini almamışdı. Ankara hesab etmişdi ki, Ermənistanın sovet hökuməti daşnak hökumətinin Türkiyə ilə 2 dekabr 1920-ci il tarixində imzalanmış Aleksandropol (Gümrü) müqaviləsini tanımadığından konfransda iştirak təşəbbüsü və yeni müqavilə təklifi İrəvandan gəlməlidir.

Buna görə RSFSR xaql xarici işlər komissarı G. Çiçerin Ermənistan SSR-in yeni xalq xarici işlər komissarı Askenaz Mravyana teleqram göndərərək konfransda iştirak etmək üçün “istək ifadəsi” ilə Türkiyə hökumətinə müraciət etməyi tövsiyə etmişdi. 24 avqust 1921-ci ildə Ermənistanın xalq xarici işlər komissarı A.Mravyan “böyük qardaşın” məsləhətini nəzərə alaraq Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəyin adına nota göndərmişdi. Nəticədə, Yusuf Kamal bəy avqustun 30-da Qarsda keçiriləcək konfransda iştirak etmək üçün erməni nümayəndə heyətinə dəvət göndərmişdi.

Qars konfransı 26 sentyabr–13 oktyabr 1921-ci ildə keçirildi. Konfransın stenoqrafik hesabatlarının və iclas protokollarının təhlili göstərir ki, buradakı danışıqlar prinsipiallığı və kəskin diskussiyaları ilə fərqlənmişdi. Türkiyənin Cənubi Qafqazın 3 sovet respublikası ilə ikitərəfli müqavilələr imzalamaq təklifi bir daha konfransda vasitəçi kimi iştirak edən və Cənubi Qafqaz respublikaları ilə Türkiyənin vahid müqaviləsinin tərəfdarı olan Sovet Rusiyası nümayəndələrinin müqavimətinə rast gəlmişdi. Uzun müzakirələrdən sonra 13 oktyabr 1921-ci ildə 20 maddə və 3 əlavədən ibarət Qars müqaviləsi imzalanmışdı.



Müqavilənin 2-ci bəndinə əsasən, tərəflər onlardan birinə zorla qəbul edilməsinə məcbur ediləcək sülh müqavilələrini və ya digər beynəlxalq aktları tanımamaq barədə razılığa gəlmişdilər. Beləliklə, Ermənistan əvvəllər imzalanmış Moskva müqaviləsinə tamamilə müstəqil şəkildə qoşulmuşdu və erməni tarixçilərin bu gün təqdim etmək istədikləri kimi o, buna məcbur edilmədi. Özü də Türkiyəyə aid və Türkiyə Böyük Millət Məclisi tərəfindən tanınmayan beynəlxalq aktları tanımamaq öhdəliyini öz üzərinə götürmüşdü. Bu, ilk növbədə, 10 avqust 1920-ci il tarixli Sevr müqaviləsinə aid idi (Osmanlı imperiyası ilə Antanta arasında bağlanmış bu müqaviləyə əsasən bir sıra Şərqi Anadolu torpaqları Ermənistana verilməli idi).

Qars müqaviləsinin 5-ci bəndinə əsasən, Türkiyə, sovet Ermənistanı və Azərbaycanı hökumətləri razılaşmışdılar ki, Naxçıvan vilayəti bu müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edəcək. Lakin Moskva müqaviləsindən fərqli olaraq, təklif olunan mətndə Azərbaycanın Naxçıvanı heç bir üçüncü tərəfə güzəşt etmək hüququnun olmadığı fikri yox idi. Eyni zamanda, müqavilədə onun qüvvədə olma müddəti barədə heç nə deyilməmişdi, onun altında Naxçıvanı Azərbaycan ərazisinin bir hissəsi kimi tanıyan Sovet Ermənistanının imzası var idi.

Qars konfransının yekunları erməni diasporunda birmənalı qarşılanmamışdı. Təbrizdə çap olunan “Ayg” qəzeti 13 noyabr 1921-ci il tarixli sayında “Pərdə götürülüb” adlı məqaləsində yazmışdı: “Qars rus-türk müqaviləsi, nəhayət, erməni məsələsi üzərinə xain bolşeviklərin və xalqını satan erməni kommunistlərin bu qədər hiyləgərcəsinə örtdüyü pərdəni götürdü. Kiçik Naxçıvanı kamalçıların caynaqlarından belə çıxara bilmədilər”. Məqalədə Qars müqaviləsinin təkcə Ermənistan deyil, Rusiyanın özü üçün də heç bir şey vermədiyi və guya, “türk qoşunlarının Moskvaya girərək məğlub olmuş Rusiyaya sülh şərtlərini diktə etdiyi” qeyd edilirdi.

Qnçak partiyasının orqanı olan “Jogovurdi-Zain” qəzeti isə 6 noyabr 1921-ci il tarixli sayında yazmışdı: “Qars müqaviləsi gələcəkdə, ümumiyyətlə, Qafqazın və xüsusən də Ermənistanın fəthi üçün ilkin şərtlər hazırlamaq məqsədi daşıyır. Əhalisinin yarısını müsəlmanlar təşkil edən Qars rayonunu Ermənistan sərhədlərindən uzaqlaşdırmaq və muxtar Naxçıvanla birlikdə Azərbaycanın himayəsi altında bufer yaratmaq, beləliklə, erməni Qarabağı və Zəngəzuru metropolidən ayırmaqdır.

Erməni daşnaklarının “Çakatamart” qəzeti 6 dekabr 1921-ci il tarixli sayında “Ermənistandakı vəziyyət” adlı məqaləsində qeyd edirdi ki, “yalnız tatarlar Qars konfransının qərarından razı qaldılar”.

Qars müqaviləsinin imazalanmasına baxmayaraq onun ratifikasiya edilməsi xeyli yubadılmışdı. Bunu bolşeviklər Cənubi Qafqaz federasiyasının yaradılması ilə izah etməyə çalışmışdılar. Türkiyə üçün isə müqavilənin, xüsusilə, sovet Ermənistanı tərəfindən daha tez ratifikasiya edilməsi böyük siyasi əhəmiyyət kəsb etmirdi.



Azərbaycan SSR-nin Türkiyənin Ankara hökuməti yanında səlahiyyətli nümayəndəsi İbrahim Əbilovun 1922-ci ilin yanvar ayının 26-da Anakara hökumətinin Qars konfransında nümayəndə heyətinin rəhbəri olmuş Yusuf Kamal bəy ilə keçirdiyi görüş, əsasən, Qars müqaviləsinin ratifikasiyası ilə bağlı olmuşdu. Cənubi Qafqaz federasiyasının yaradılması haqqında Yusuf Kamal bəyin sorğusuna cavab olaraq İ.Əbilov bu barədə müfəssəl məlumatının olmadığını, lakin əgər bu federasiya yaranarsa, onun Türkiyəyə münasibətinin dəyişməyəcəyini bildirmişdi.

Yusuf Kamal bəy isə Qars müqaviləsinin yubanması və bununla bağlı millət vəkillərinin suallarına cavab verə bilməməsinin onu narahat etdiyini bildirmişdi: “Siz indi bəyan etdiniz ki, müqavilə ümumittifaq şura konfederasiyası yarandıqdan sonra təsdiq ediləcək. Sizə deməliyəm ki, Qars konfransı zamanı federasiya və buna müvafiq olaraq, onun vahid nümayəndəliyinin olmaması kimi hər hansı bir səbəb bizi təmin etmir. RSFSR ilə müqavilə bağlamaq üçün Moskvaya gedərkən, biz yolüstü Azərbaycan, sonra Gürcüstan və nəhayət, Ermənistanla müqavilə bağlamaq fikrində idik... Sonra Moskvada bizə dedilər ki, siz bu respublikaların hər biri ilə ayrılıqda deyil, eyni zamanda, üçü ilə də bir yerdə müqavilə bağlamalısınız. Bizim üçün yalnız bir yol qalırdı: bununla razılaşmaq. Lakin biz Qarsda ittifaq federasiyasının ümumi nümayəndəliyi ilə deyil, Azərbaycan, Gürcüstan və Ermənistan Sovet Respublikasının ayrı-ayrılıqda müstəqil nümayəndələri ilə əlaqədə olduq”.

İ.Əbilov Yusuf Kamal bəyi inandırmağa çalışmışdı ki, “müqavilənin ayrı-ayrı respublikalar və ya ittifaq soveti tərəfindən təsdiq edilməsinin elə bir fərqi yoxdur. Bu bir faktdır ki, Qars konfransında hər 3 respublika bir tərəf kimi çıxış edib. Bu müqavilə ayrı-ayrılqda təsdiq olunsa da doğrudur, ittifaq soveti tərəfindən bir yerdə təsdiq olunsa, yenə doğrudur”.

Belə olduqda, Yusuf Kamal bəy açıq danışmağa üstünlük vermiş və demişdi: “Müqavilənin Azərbaycan tərəfindən təsdiq edilməsi bizim üçün xüsusi bir tələskənlik və zərurət təşkil etmir. Bu bizi elə də çox maraqlandırmır və Gürcüstanla da belədir. Lakin müqavilənin Ermənistan tərəfindən ayrıca təsdiq ediməsi bizim üçün fövqəladə dərəcədə vacibdir və bizi çox maraqlandırır.

Sizə məlumdur ki, Şərq məsələsinə dair konfransa bizim də dəvət olunacağımız güman edilir. Sizə bu da məlum olmalıdır ki, erməni xadimlərinin Qərbdə apardığı işin və təbliğatın nəticəsində erməni məsələsi ətrafında müzakirələr və dedi-qodular gedir. Ona görə də İngiltərə və ya Amerikanın – bunun elə də fərqi yoxdur – erməni məsələsini qaldırması tamamilə mümkündür. Əgər həmin vaxt həm erməni daşnakları, həm də erməni kommunistləri ilə bağladığımız müqavilələr əlimizdə olsa, biz öz maraqlarımızın müdafiəsinə qalxa bilərik.

Əgər Qars müqaviləsi ayrı-ayrı Cənubi Qafqaz respublikası tərəfindən deyil, ittifaq soveti tərəfindən təsdiq edilsə, onda konfransda deyə bilərlər ki, bu erməni xalqının iradəsinin ifadəsi deyil, bu, Türkiyə və sovet Rusiyasının kənardan öz iradəsini zorla qəbul etdirməsi yolu ilə baş vermişdir. Beləliklə, siz görürsünüz ki, müqavilənin Ermənistan tərəfindən müstəqil ratifikasiyası bizim üçün fövqəladə dərəcədə mühüm və zəruridir.

Ona görə mən sizdən artıq dərəcədə xahiş edirəm, Qars müqaviləsinin hər bir respublika tərəfindən ayrılıqda ratifikasiya olunması və bu işin sürətləndirilməsi istiqamətində müvafiq qərar qəbul edilməsi üçün yoldaş Nərimanovla əlaqəyə girməkdən imtina etməyəsiniz”.

Yusuf Kamal bəyin bu açıq izahatından sonra İ.Əbilov demişdi: “Əgər bu məsələ həqiqətən sizi belə maraqlandırırsa, mən şəxsən yoldaş Nərimanovla əlaqəyə girib, ondan xahiş edərəm ki, ratifikasiya haqqında məsələni sizin üçün uyğun formada həll etməyə cəhd göstərsin”.

Bütün bunların nəticəsi olaraq, Qars müqaviləsi 1922-ci ilin mart ayının 3-də Azərbaycan, mart ayının 17-də Türkiyə Böyük Millət Məclisi, mart ayının 20-də Ermənistan və iyun ayının 14-də Gürcüstan hökuməti tərəfindən ayrı-ayrılıqda ratifikasiya edilmişdi.

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə tənzimlənməsinin onun təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətini xüsusi qeyd etmişdir: “Naxçıvan Muxtar Respublikasının statusunun iki beynəlxalq müqavilə ilə təyin olunması təsadüfi bir şey deyil. Fikirləşmək lazımdır, nə üçün Naxçıvanın statusu beynəlxalq müqavilələrlə müəyyən olunubdur? Çünki o vaxtlar Naxçıvana göz dikənlər çox idi. Onun məhz Azərbaycanın tərkibində olmasını bir daha təsdiq etmək üçün o, belə beynəlxalq müqavilələrdə öz əksini tapmışdır. 1921-ci ilin mart ayında Moskva müqaviləsi və 1921-ci ilin oktyabr ayında Qars müqaviləsi bağlanmışdır. Sovetlər İttifaqı dağılan zaman və Naxçıvana qarşı yenə də xəyanətkar əllər uzanan zaman biz bu müqavilələrin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu dərk edə bildik”.

Ulu öndər Heydər Əliyev Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasında Türkiyənin rolunun da böyük önəmini vurğulamışdı: “Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti olubdur. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı.”

Lakin Ulu öndər təəssüf hissi ilə bildirmişdi: “1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvan Muxtar Respublikasının 657 kvadratkilometr torpağı Ermənistana verilmişdir. Bu həqiqətdir”.

Bəli, o zaman Zaqafqaziya MİK-ın 18 fevral 1929-cu il tarixli qərarı ilə Türkiyənin razılığı və heç bir əsas olmadan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının sərhədləri dəyişdirilmişdi. 1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvana məxsus ərazilərin bir hissəsi, o cümlədən, Şərur qəzasının Qurdbulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Ağxaç, Aqbin, Almalı, Dağalmalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçivan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilit kəndinin bir hissəsi Ermənistana verilmişdi. Bu isə Naxçıvan MSSR-in statusu və sərhədləri haqqında beynəlxalq Moskva və Qars müqavilələrinin şərtlərini kobud şəkildə pozulması demək idi.

Sonda bildirək ki, bütün bunlara baxmayaraq qədim türk yurdu Naxçıvanın bu gün müstəqil Azərbaycanın tərkibində olması 103 il əvvəl imzalanmış Qars müqaviləsinin hüquqi əsasları ilə mümkün olmuşdur. Qars müqaviləsi Naxçıvanın müxtar ərazi olaraq ölkəmizin ayrılmaz tərkib hissəsi olmasının mötəbər qarantıdır.

***İlqar NİFTƏLİYEV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun direktor müavini, dosent***

# Milli elektron su atlası yaradılır

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da Azərbaycanda 2025–2027-ci illərdə coğrafi informasiya sistemləri əsasında elektron su atlasının yaradılmasının planlaşdırılması qeyd edilib.**



Strategiyada bildirilib ki, ilkin nəticə coğrafi informasiya sistemləri modelinin qurulması, mövcud xəritələrin elektronlaşdırılması və veb-xəritələşdirmədən ibarət olacaq və bu zaman su və su təsərrüfatı obyektləri, o cümlədən infrastrukturları barədə məlumatların coğrafi informasiya sistemlərinə inteqrasiyası diqqətdə saxlanılacaq.

2024–2027-ci illərdə “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın”nın həyata keçirilməsi üzrə Tədbirlər Planındakı hədəflərdən biri də yeraltı və yerüstü suların istismar ehtiyatının müəyyən olunmasıdır. Bu fəaliyyət çərçivəsində kompleks hidrogeoloji, hidroloji, geofiziki tədqiqat işlərinin aparılması, hidroloji, hidrogeoloji və meteoroloji monitorinq məntəqələrinin sayının artırılması, məlumatların Elektron su təsərrüfatı informasiya sisteminə inteqrasiyası da planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanda 140-dan çox su anbarı var. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 15,7 milyard kubmetr), Şəmkir (2,7 milyard kubmetr), Araz çayı üzərindəki Xudafərin (1,6 milyard kubmetr) və Araz (1,3 milyard kubmetr), habelə Tərtər çayı üzərindəki Sərsəng (0,56 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi həcmi isə 24 milyard kubmetrə yaxındır.

Su infrastrukturunun yaxşılaşdırılması istiqamətdə aparılan işlər çərçivəsində Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Xudafərin və Qız qalası su anbarları tikilib, Oğuz–Qəbələ–Bakı su kəməri çəkilib, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi inşa edilib, rayon və şəhər mərkəzlərində, eyni zamanda, kənd və qəsəbələrdə içməli su təchizatı, eləcə də tullantı sularının axıdılması ilə bağlı tikinti və yenidənqurma işləri həyata keçirilib. Belə layihələrin icra edilməsi nəticəsində əhalinin içməli su təminatı 67 faizə çatdırılıb, əkin sahələri 1,5 milyon hektara qədər genişləndirilib.

Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerləşən Suqovuşan, Xaçınçay, Zabuxçay su anbarlarında və 3 su anbarından ibarət Köndələnçay kompleksində bərpa və tikinti işləri aparılıb. Qəbələdə Yengicə su anbarının, Oğuz və Şəki rayonlarının ərazisində isə Əlicançay su anbarının tikintisinə başlanılıb. Bundan əlavə, dağ çayları sularının yığılması üçün relyefə uyğun su anbarlarının yaradılması məqsədilə 6 su anbarı, o cümlədən Həkəriçay (Laçın) və Bərgüşadçay (Qubadlı) su anbarlarının tikilməsi istiqamətində işlərə başlanılıb. Başlanğıcını Mingəçevir su anbarından götürən Şirvan və Qarabağ suvarma kanallarının yenidən qurulmasına başlanılıb. Əlavə olaraq, 20 suvarma kanalının, 1 hidroqovşağın və 1 kollektorun yenidən qurulması planlaşdırılıb.

# Ağdam Sənaye Parkının sifarişləri çoxalır

**“Bakı Gəmiqayırma Zavodu” Ağdam Sənaye Parkında fəaliyyət göstərən “BAFCO İnvest” müəssisəsinin istehsalı olan 1360 ədəd xüsusi təhlükəsizlik ayaqqabısı sifariş edib. Aşınmaya davamlı olan bu məhsullar zavodun işçi qüvvəsini istehsal prosesi zamanı potensial təhlükələrdən qoruyacaq, əməyin təhlükəsizliyinə və yerli istehsala öz töhfəsini verəcək.**

Xatırladaq ki, “BAFCO İnvest” MMC 2023-cü ilin mart ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə, ümumilikdə, 120 nəfərin işlə təmin ediləcəyi, işçilərin Ağdamdan və ətraf rayonlardan cəlb olunacağı nəzərdə tutulur.

Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizi yerli, 35 faizi isə xarici bazarlarda satışa çıxarılacaq.

“BAFCO İnvest” MMC sənaye parklarında tətbiq olunmuş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər bir milyon manatdan çox vəsaitə qənaət edib.



Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılır. Bunun nəticəsidir ki, artıq İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parkları arasında Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında, ümumilikdə, 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq indiyədək sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

# 9 ayda orta illik inflyasiya 1,5 faiz olub

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar–sentyabr aylarında Azərbaycanda istehlak qiymətləri indeksi ötən ilin eyni dövrü ilə müqayisədə 101,5 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,4 faiz, qeyri-qida məhsulları üzrə 101,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 103,3 faiz təşkil edib.**




Məlumata görə, bu ilin sentyabr ayında istehlak qiymətləri indeksi ötən ilin eyni ayına nisbətən 103,5 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 102,9 faiz, qeyri-qida məhsulları üzrə 101,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 105,7 faiz olub. Ötən ay istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,3 faiz təşkil edib. Qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi isə əvvəlki aya nisbətən 100,5 faizə çatıb.

Sentyabrda ayrı-ayrı qida məhsullarından daha çox artım uzun və yumru düyü, mal və qoyun əti, kolbasa məmulatları, kərə yağı, yumurta, şaftal, qoz, şabalı, pomidor, şirin bibər, badımcan və süfrə çuğundurunun qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ötən ay qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz olub. Qeyri-qida mallarından daha çox artım inşaat materiallarının və zərgərlik məmulatlarının qiymətlərində müşahidə edilib. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ekspertlər bildirirlər ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən anti-inflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Bundan əlavə, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında”, eləcə də “İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə” sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

**Dövlət Vergi Xidmətindən aldığımız məlumata görə, bu ilin 9 ayında respublika üzrə uçotda olan 1 milyon 576 min 898 vergiödəyicisinin 87,1 faizi fiziki şəxslər, 12,9 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərinin ümumi sayı 5,9 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,6 faiz, hüquqi şəxslərin sayı isə 7,3 faiz çoxalıb. Qeydiyyatda olan kommersiya qurumlarının sayı isə 8 faiz artaraq 186 min 247-ə yüksəlib.**

# Vergiödəyiciləri 6 faiz artıb



Bildirilir ki, yanvar-sentyabr aylarında 10 min 194 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 89,3 faizi yerli, 10,7 faizi xarici investisiyalı müəssisə olub.

Hesabat dövründə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində fəal ƏDV ödəyicilərinin sayı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,4 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi isə 32,2 faiz təşkil edib. Bu dövr ərzində dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,2 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,2 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və digər formalarda yaradılıb.

İqtisadi fəallıq, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması istiqamətində aparılan işlər bir çox sahələrdə fəaliyyətin leqallaşmasına, aktiv ödəyici kateqoriyasının artmasına imkan verib. ƏDV ödəyicilərinin sayında müşahidə olunan artım isə fiskal nöqteyi-nəzərindən xüsusilə aktualdır.

Son illər vergi qanunvericiliyi, istərsə də Vergi Məcəlləsində əhəmiyyətli dəyişikliklər edilib. Sahibkarlıq assosiasiyaları, sahibkarların ictimai birlikləri ilə əlaqələrin genişləndirilməsi istiqamətində intensiv iş aparılıb. Həm qanunvericilikdə olan son dəyişikliklər, həm də perspektiv dəyişikliklər sahibkarların ictimai birlikləri ilə, sahibkarları təmsil edən assosiasiyalarla mütəmadi müzakirə olunub.

Dövlət Vergi Xidməti qarşıda duran əsas hədəflərə və iqtisadi sistemin yeni çağırışlarına uyğun olaraq təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsiplərinə söykənən rəqəmsal platformanı təkmilləşdirməkdə davam edir. Vergi sistemində rəqəmsallaşma səviyyəsi və rəqəmsal inzibatçılıq daha da təkmilləşir. Sayı davamlı şəkildə artan fəal vergi ödəyicilərinə münasibətdə effektiv nəzarətin qurulması yalnız bu yolla mümkündür. Bu baxımdan, vergi xidmətinin rəqəmsallaşma səviyyəsi və dərinliyi artırılmaqdadır.

Beynəlxalq təcrübəyə uyğun olaraq, vergi qanunvericiliyinə bir sıra yeniliklər daxil edilib. O cümlədən müxtəlif vergidən yayınma sxemlərinin tətbiqinin qarşısının alınması, ölkədəki qeyri-rezident və rezident şəxslər üçün beynəlxalq vergitutma baxımından ədalətli və əlverişli sistemin yaradılması, həmçinin avtomatik məlumat mübadiləsinin genişlənməsi və emalın daha səmərəli aparılması, beynəlxalq müqavilələr şəbəkəsinin artırılması, inzibati yardım üzrə digər formatların tətbiq edilməsi, müqavilələrin tətbiqi ilə bağlı proseslərin rəqəmsallaşdırılması ilə bağlı beynəlxalq standartlar qanunvericiliyə daxil edilib. Xüsusilə də, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təşəbbüsü ilə dünyanın 60-dan çox ölkəsinin, o cümlədən Azərbaycanın da qoşulduğu “Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi”layihəsi ilə bağlı qanunvericilikdə yeniliklər mövcuddur.

# “Xocalı” gəmisinin “Murovdağ” qardaşı



**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin verdiyi məlumata görə, Xəzərdənkənar fəaliyyətinin genişləndirilməsi məqsədilə sayca ikinci “Handysize” tipli quru yük gəmisinin alqı-satqısını həyata keçirib. Gəminin alınması layihəsi üzrə maliyyələşmə QSC-nin dövriyyəyə buraxdığı istiqrazlardan əldə olunan vəsait hesabına reallaşdırılıb. Yeni alınan “Handysize”nin Prezident İlham Əliyevin tapşırığına əsasən “Murovdağ” adlandırılması qərara alınıb.**

Bu quru yük gəmisi də cari ilin mayında istismara buraxılan ilk “Handysize” tipli “Xocalı” gəmisi kimi, təxminən, 38 min ton yükgötürmə imkanına malikdir. Uzunluğu 179,9, eni 30, bortunun hündürlüyü 15, suya oturumu 10,47 metr, maksimum sürəti 15,7 uzeldir. Suya oturumu maksimum yük götürməklə, onun bir çox dayaz limanlara da rahatlıqla daxil olmasına şərait yaradır.

Ekoloji baxımdan beynəlxalq standartlara cavab verən, yanacaq sərfində qənaətcilliyə malik olan, yüksək təhlükəsizlik sistemləri ilə təchiz edilən bu gəmi 2020-ci ildə Yaponiyada inşa olunub. Məhdudiyyətsiz üzmə imkanlarına malik gəminin ilk səfərinin Çindən Ekvadora, oradan isə Kolumbiyaya yönələcəyi və dekabrda təyinat limanına çatacağı gözlənilir.

# Qarabağ və Şərqi Zəngəzurda 28 SES tikiləcək

**“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da Qarabağ və Şərqi Zəngəzurda 28 su elektrik stansiyasının tikiləcəyi qeyd edilib. Milli Strategiyada 2024–2040-cı illər ərzində ölkədə su ehtiyatlarının səmərəli istifadəsi, idarə edilməsi və çirklənməsinin qarşısının alınması, dəniz suyunun duzsuzlaşdırılması, suvarma sistemlərinin modernləşdirilməsi, habelə işğaldan azad edilən ərazilərin su ehtiyatlarından istifadə sahəsində tədbirlərin həyata keçiriləcəyi də nəzərdə tutulub.**

Strategiyaya əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından və hidroenerji potensialından “ağıllı su” sistemlərinin tətbiqi ilə rasional istifadə təmin ediləcək. Yerüstü suların hidroenerji potensialı qiymətləndirilərək su elektrik stansiyaları, o cümlədən su təsərrüfatı obyektlərinin imkanları nəzərə alınmaqla kompakt enerji stansiyası yaradılacaq.

Bütün bunlarla bərabər, sağlamlıq, sahil və su turizmi imkanları üzrə qiymətləndirmə aparılacaq, əhalinin içməli su ilə təchizatının daha da yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyuna tələbatının ödənilməsi və su ehtiyatları potensialından səmərəli istifadə edilməsi hövzələrarası su transferini həyata keçirməyə imkan verəcək. Beləliklə, iqtisadi rayonlarda 300 min hektardan çox torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# Dünya COP29-da Azərbaycanı bütün əzəməti ilə görəcək

**(əvvəli 1-ci səhifədə)**

Buna görə də sərəncam imzalanan gündən Azərbaycanın perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi ilə əlaqədar layihələrin icrası diqqət mərkəzində saxlanılıb. Azərbaycan hökuməti sözügedən prioritet daxilində strateji dövrdə iki məqsədin – yüksək keyfiyyətli ekoloji mühitin yaradılmasına və ölkəmizin “yaşıl” enerji məkanına çevrilməsi üçün ən zəruri tədbirlərin reallaşdırılmasını önə çəkib. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ində də vurğulandığı kimi, iqtisadi artımla ekoloji mühitin tarazlı olmasına xüsusi önəm verib.




Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin sözlərinə görə, yüksək keyfiyyətli ekoloji mühitin məqsədi ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır.

Bu prioritetlərə nail olunması isə respublikamızda “yaşıl” iqtisadiyyat məsələsini aktuallaşdırıb. Bu baxımdan 2021-ci ildə Şotlandiyanın Qlazqo şəhərində keçirilən iqlim konfransında (COP26) Azərbaycan qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması ilə bağlı yeni təşəbbüslə çıxış edərək, 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğalçıdan təmizlənən ərazilərdə 2050-ci ilə qədər “netto sıfır emissiya” zonasının yaradılması niyyətini bildirib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların dirçəldilməsi istiqamətində “yaşıl” enerji zonası, “yaşıl” kənd təsərrüfatı, “yaşıl” nəqliyyat, həmçinin “ağıllı” şəhər və kəndlərin salınması yanaşmalarının tətbiqi, minlərlə hektar sahədə meşələrin bərpası burada 2050-ci ilə qədər “netto sıfır emissiya” hədəfinə çatmaqda böyük rol oynayacaq.

Muxtar Babayevin fikrincə, qloballaşan dünyada insanların rifah səviyyəsinin artırılması və tələbatlarının ödənilməsində davamlılığın təmin olunması üçün iqtisadi, sosial və ekoloji aspektlərin hər birinin nəzərə alınması vacibdir. Məhz iqtisadi ədəbiyyatda bu aspektlərə vahid yanaşmanı təmin edən konsepsiya “yaşıl” iqtisadiyyat adlanır. “Yaşıl” iqtisadiyyat anlayışı, ilk növbədə, ekoloji iqtisadiyyat istiqaməti ilə birbaşa əlaqədədir. Zaman keçdikcə qeyd olunan bu problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi daha da aktuallaşır. Vaxtında həllini tapmayan, kiçik bir təbiət hadisəsi kimi izah olunan çətinliklər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilir.

Azərbaycan Respublikasında da ekoloji problemlərin həlli vacib sayılır və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz mütərəqqi bəşəriyyətin qəbul etdiyi “Dayanıqlı inkişaf” konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə töhfə verir və iqlim dəyişmələrinə təsirlərin yumşaldılması istiqamətində fəaliyyət göstərir . Ölkə Prezidentinin 11 mart 2020-ci il tarixli müvafiq sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq fəaliyyət planı çərçivəsində layihələr həyata keçirilir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün Azərbaycanda iqlim dəyişmələrinə təsirlərin azaldılması istiqamətində bərpaolunan və alternativ enerji mənbələrindən və enerji səmərəli texnologiyalardan istifadənin artırılması, meşə ərazilərinin genişləndirilməsi və digər tədbirlər gerçəkləşdirilir.

Sonda onu da qeyd edək ki, Azərbaycan bu gün iqlim konfransına ciddi hazırlaşır. COP29 Əməliyyat Şirkətinin mətbuat xidmətinin məlumatında bildirilir ki, ölkəmizdə iqlim konfransının keçirilməsi üçün dövlət büdcəsində müvafiq ayırmalar təsdiq edilib. Həmin vəsaitlər hesabına dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri olan beynəlxalq konfransın yüksək səviyyədə təşkili və zəruri infrastrukturun qurulması üzrə işlərin aparılması nəzərdə tutulub.

COP29-a ayrılmış dövlət vəsaiti üzərində maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə ölkənin ali audit orqanı konfransın təşkili üzrə maliyyə idarəetməsini, ayrılmış dövlət vəsaitinin təsdiq edilmiş göstəricilərə, bağlanılmış müqavilə məbləğlərinin aidiyyəti istiqamətdə ayrılmış vəsaitə, habelə müqavilələrin icrasının müqavilə şərtlərinə uyğunluğunu diqqətdə saxlayır. Məqsəd müvafiq audit prinsiplərində qeyd olunan məqamlar nəzərə alınmaqla maliyyə pozuntuları baş verməzdən öncə onların qarşısının alınmasıdır.

Eyni zamanda, maliyyə nəzarətinin aparılmasında məqsəd hesabatlılıq və şəffaflıqla yanaşı, tədbirin təşkili üçün ayrılmış vəsaitin səmərəli istifadə olunması, eləcə də qənaət olunan məbləğlərin büdcəyə qaytarılmasıdır.

# Qarabağda karbon “xalis sıfır”a endiriləcək



**Energetika naziri Pərviz Şahbazov Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) çərçivəsində keçirilən panel iclasında Qarabağda “yaşıl” enerji zonalarının yaradılmasının “xalis sıfır”a keçid üçün əsas olacağını bildirib.**

Nazir 2030-cu ilə qədər 7 giqavat “yaşıl” enerjinin reallaşdırılacağının və bunun 70 faizinin ixrac olunacağının planlaşdırıldığını vurğulayaraq bu göstəricilərin Mərkəzi Asiyadan Avropaya daha geniş coğrafiyada “yaşıl” enerji keçidinə mühüm töhfə verəcəyini qeyd edib.

Onun sözlərinə görə, Azərbaycanın regionda COP29-a ilk evsahibliyi edən ölkə kimi, Paris Sazişinin yeni razılaşması və 6-cı maddəsinin həyata keçirilməsi də daxil olmaqla, iqlim konfransında balanslaşdırılmış nəticə əldə etmək üçün iddialı gündəm var. COP29 Prezidentliyi maliyyə axınının əhəmiyyətli dərəcədə artırılmasına diqqət yetirərkən, eyni zamanda, maneələrin sürətlə aradan qalxmasına yol açacaq.

# Enerji səmərəliyinə 7 dəfə çox investisiya tələb olunur

*2030-cu ilədək bu məbləğ 31,5 trilyon dollara çatmalıdır*

**Energetika naziri Pərviz Şahbazov Pre-COP29 çərçivəsində keçirilən “BƏƏ Konsensusunun enerji nəticələrinin izlənməsi” mövzusunda yan tədbirdə bildirib ki, 2030-cu il hədəflərinə çatmaq üçün bərpaolunan enerji mənbələri hesabına fəaliyyət göstərən elektrik şəbəkələrində səmərəliliyi gerçəkləşdirmək məqsədilə 31,5 trilyon ABŞ dolları həcmində investisiya yatırımı zəruridir.**



Hazırkı səviyyədə bu göstərici 2024-2030-cu illər arasında hər il tələb olunan 1,5 trilyon ABŞ dollarından azdır. Buna görə də bərpaolunan enerji potensialını və investisiya qoyuluşunu ildə 2 dəfədən çox, enerji səmərəliliyinə sərmayəni isə 7 dəfə artırmaq lazımdır.Nazirin sözlərinə görə, Azərbaycan dünyada enerji keçidinin sürətləndirilməsi prosesinə rəhbərlik etməklə yanaşı, həm də milli və regional miqyasda bərpaolunan enerji potensialının artırılmasını şərtləndirən irimiqyaslı milli və transsərhəd layihələr həyata keçirir.

Energetika naziri daha sonra deyib: “2027-ci ilə qədər proqramımızın icrasının birinci mərhələsi çərçivəsində ötən il ölkəmizin bərpaolunan elektrik enerjisi gücü 373,6 MVt artıb. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan bölgələrində yaşıl enerji zonalarının yaradılması respublika miqyasında “xalis sıfır emissiya”ya keçid üçün əsas olacaq. 2030-cu ilə qədər 7 giqavat “yaşıl” enerji istehsal etmək planlarımız var.

Həmin göstəricinin 70 faizi ixrac ediləcək və biz ardıcıl olaraq 3 böyük yaşıl interkonnektor – “Xəzər–Qara dəniz–Avropa”, “Mərkəzi Asiya–Azərbaycan–Avropa” və “Azərbaycan–Türkiyə–Avropa” layihələri üzərində işləyirik. Həmin “yaşıl” enerji dəhlizləri Mərkəzi Asiyadan Avropaya, daha geniş coğrafiyada “yaşıl” enerji keçidinə mühüm töhfə verəcək. Azərbaycan öz “yaşıl” gündəliyinə, eləcə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq səylərinə sadiqdir”.

# AİB Xəzər hidrogen dəhlizinə dəstək verəcək

**Asiya İnkişaf Bankı (AİB) Xəzər dənizi vasitəsilə “yaşıl enerji dəhlizi”nin yaradılması layihəsinin həyata keçirilməsi üçün Texniki Yardım Xüsusi Fondu vasitəsilə 225 min ABŞ dolları ayırıb.**




AİB-nin yaydığı xəbərdə bildirilir ki, həmin layihə Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərini birləşdirəcək sualtı kabel çəkilişini nəzərdə tutur ki, bu da regional enerji əməkdaşlığının gücləndirilməsi və davamlı transsərhəd elektrik enerjisi ticarətinin yaradılması istiqamətində mühüm addımdır. Bu layihənin icrasını nəzərə tutan Anlaşma Memorandumunu 3 ölkə hökuməti 2024-cü il mayın 2-də imzalayıb və layihə regionda enerji təhlükəsizliyinin təmin edilməsinə, davamlı enerji təcrübələrinin inkişafına və iqtisadi artımın dəstəklənməsinə yönəlib. Layihədə, eyni zamanda, bərpaolunan enerjinin Xəzər regionundan Qara dənizdəki kabel vasitəsilə Avropaya ötürəcək “yaşıl dəhliz”in yaradılması nəzərdə tutulur.

Hazırda AİB-nin layihəyə müxtəlif tədbirlər vasitəsilə göstərdiyi texniki dəstək hökumətlərarası işçi qrupların formalaşdırılmasına, xüsusi təyinatlı birgə müəssisənin yaradılmasına, şəffaf və səmərəli idarəetmə strukturunun, hüquqi və kommersiya çərçivələrinin işlənib hazırlanmasına, yüksək keyfiyyətli texniki qiymətləndirmələrin və texniki-iqtisadi əsaslandırmaların gerçəkləşdirilməsi üçün ölkə nümayəndələrinin potensialının artırılmasına kömək edəcək. Bu layihə təkcə Mərkəzi Asiyada enerji əməkdaşlığını gücləndirməyəcək, həm də Paris sazişinin məqsədlərini və “yaşıl” enerji infrastrukturunun inkişafını dəstəkləyərək istixana qazı emissiyalarının azaldılmasını şərtləndirəcək.

# Təmiz texnologiyalara “yaşıl” işıq!

**Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko Pre-COP29 çərçivəsində “BƏƏ Konsensusunun enerji nəticələrinin izlənməsi” mövzusunda yan tədbirdə bildirib ki, təmiz enerjiyə keçidlə bağlı dünyanın tərəqqisi sürətləndirilməlidir. Xüsusən də hökumətlər yerli ambisiyaları milli iqlim siyasətlərinə inteqrasiya etməli, az inkişaf etmiş ölkələrin bərpaolunan mənbələri 3 dəfə artırılmalıdır: “Sevindirici haldır ki, artıq bu istiqamətdə müəyyən layihələrin icrasına başlanılıb. Məhz bunun nəticəsidir ki, cari ilin birinci yarısında elektrik enerjisi istehsalının 50 faizi bərpaolunan enerji mənbələrindən əldə edilib”.**




P.Mixalkonun sözlərinə görə, müəyyən edilmiş təmiz enerji texnologiyaları üçün də əlverişli şərait yaratmaq lazımdır. Bu, bərpaolunan enerji layihələri üçün təchizat prosedurlarının sürətləndirilməsi və bərpaolunan enerji mənbələrinin daha çox mənimsənilməsinin diqqət mərkəzində saxlanılması deməkdir. Bunun üçün şəbəkəyə və saxlama qabiliyyətinə görə əhəmiyyətli investisiya tələb olunur.

Təmiz enerji keçidini reallaşdırmaq məqsədilə hazırda dövlət maliyyəsinin mühüm rol oynayacağı regionlara investisiya qoyuluşuna ciddi ehtiyac var. Biz bu məsələnin həlli üçün özəl kapitalı səfərbər etməliyik. Keçən il Avropa İttifaqı inkişaf etməkdə olan ölkələri iqlim dəyişikliyi ilə mübarizədə dəstəkləmək üçün 28 milyard dövlət maliyyəsini səfərbər edib və xüsusi olaraq təmiz enerji layihələri üçün 2,3 milyard avro ayırıb.

Səfir çıxışının sonunda deyib: “Bərpaolunan enerji potensialının 3dəfə və enerji səmərəliliyinin 2 qat artırılması təkcə arzu deyil, həm də nail olduğumuz mərhələlərdir. Biz ilkin qlobal məqsədlərə çatmaq üçün birlikdə işləməyə hazırıq”.

# Çexiya Orta Dəhlizdə pilot layihə həyata keçirir

**Çexiyada yerləşən “MALBI-trans” beynəlxalq nəqliyyat–logistika şirkətinin baş direktoru Liliana Krutonoq Bakıda keçirilən “Qara dəniz–Xəzər Logistika Forumu 2024: dəhlizlər, yüklər, infrastruktur” beynəlxalq konfransında rəhbərlik etdiyi qurumun Orta Dəhliz çərçivəsində pilot layihə həyata keçirdiyini diqqətə çatdırıb.**



Onun sözlərinə görə, hazırda şirkət Orta Dəhlizin imkanlarını araşdırır və bu istiqamətdə mühüm layihələrin icrasını planlaşdırır. Hazırda Rumıniya, Konstansa limanı, sonra Bakı və nəhayət, Qazaxıstana keçəcək pilot qatar hazırlanır. Bunun əsas marşrutlardan biri olacağı nəzərdə tutulur.

Liliana Krutonoq qeyd edib ki, şirkət bu gün bir sıra problemlərlə qarşılaşır. Əsas çətinlik infrastruktur darlıqlarıdır. Vəziyyəti yaxşılaşdırmaq üçün nəqliyyat mərkəzlərini genişləndirmək və yolların ötürücülük imkanlarını artırmaq lazımdır. Baş direktor vurğulayıb ki, “MALBI-trans” tenderlərdə, o cümlədən, Qazaxıstandakı layihələrdə fəallıq göstərir.

“MALBI-trans” beynəlxalq nəqliyyat-logistika şirkəti Avropanın hər yerinə, Rusiya, MDB, Çin, Türkiyə və İrana ixrac, idxal, tranzit və daxili daşımalar üzrə dəmir yolu daşımaları təklif edir.

Qeyd edək ki, Orta Dəhliz Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa ölkələri vasitəsilə Çinin və Avropa İttifaqı ölkələrinin konteyner dəmir yolu yükdaşıma şəbəkələrini birləşdirir.

Çoxtərəfli multimodal nəqliyyat infrastrukturu Xəzər və Qara dənizlərin bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmiryolu sistemləri ilə birləşdirir. Orta dəhliz Çindən Türkiyəyə, eləcə də, Avropa ölkələrinə və əks istiqamətdə yük daşımalarının artmasına imkan verir. Bu dəhlizlə hərəkət edən marşrut qatarı Çindən Avropaya malları orta hesabla 20–25 günə çatdırır və bu, adıçəkilən nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

**13 oktyabr Azərbaycan dəmiryolçularının peşə bayramıdır**

# Polad magistrallarımız – Şərqdən Qərbə mötəbər körpü



**(əvvəli 1-ci səhifədə)**

Ölkəmizdə rəqabətli, şaxələndirilmiş, inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüsünün tərkib hissəsi kimi hazırlanan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə – ölkənin tranzit imkanlarının artırılmasına hədəflənən mühüm sənəddə logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə 2025-ci ilədək və bundan sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri öz ifadəsini tapıb.

ADY son illərdə uğurla yekunlaşan transformasiya proqramı çərçivəsində infrastrukturun modernləşdirilməsi, xidmət keyfiyyətinin artırılması, qatar parkının yenilənməsi və yolların əsaslı təmiri kimi zəruri layihələr həyata keçirib. Beynəlxalq nəqliyyat dəhlizlərində mövqeyini gücləndirən ADY, eyni zamanda, müştərilərə yeni rəqəmsal həllər təklif edərək innovativ yanaşmaları diqqətdə saxlayıb.

Şirkətin qarşısında duran daha geniş strateji hədəflərə nail olmaq və dəmir yolu sahəsində müasir texnologiyalardan səmərəli istifadə etmək üçün peşəkar insan kapitalının formalaşdırılması vacib şərtdir. Bu istiqamətdə ADY-nin insan resursları siyasətinin əsas prioritetləri işçi məmnuniyyətinin artırılması, gənc dəmiryolçuların hazırlanması və onların peşəkar inkişafının dəstəklənməsidir. Bu gün təlim və inkişaf proqramlarının təşkili, səmərəli idarəetmə və motivasiyaedici iş mühiti ADY-nin strateji hədəflərə çatmasında mühüm rol oynayır.

ADY-nin department rəhbəri Ceyhun Nağıyev bununla bağlı mediaya müsahibəsində bildirib ki, insan resursları sahəsində transformasiya yalnız daxili idarəetməni təkmilləşdirmək məqsədi daşımır, həm də strateji hədəflərə çatmaq üçün vacib bir addımdır. Çünki insan kapitalı cəmiyyətin ən böyük sərvətidir və bu kapitalın səmərəli şəkildə qorunması üçün rəqəmsal həllərdən geniş istifadə edilir. Rəqəmsal həllər və avtomatlaşdırma sayəsində kadr əməliyyatlarının aparılması, əməkhaqqı hesablanması proseslərindən tutmuş işə qəbul, təlim və inkişaf proseslərinə qədər bütün sahələrdə şəffaflıq və effektivlik təmin olunur.

C.Nağıyevin sözlərinə görə, ADY-nin ən böyük rəqabət üstünlüyü şübhəsiz ki, təcrübəli və ixtisaslı kadrlardır. "Azərbaycan Dəmir Yolları" hər zaman peşəkar kadrlara xüsusi diqqət yetirir və onların inkişafı üçün lazım olan bütün imkanları gerçəkləşdirir. Həyata keçirilən strateji layihələr, beynəlxalq əməkdaşlıqlar və təcrübə mübadilələri rəqabət qabiliyyətinin daha da artırılmasına imkan verir. Bu layihələr əməkdaşların peşəkar bacarıqlarını inkişaf etdirmək, yeni texnologiyalarla işləməyi öyrənmək və beynəlxalq təcrübələrdən faydalanmaq üçün müstəsna şərait yaradır.

Hazırda ADY-də əməkdaşların peşəkar inkişafına dəstək verməklə yanaşı, onların məmnuniyyəti də daim diqqətdə saxlanılır. Çünki bu, olmadan yüksək məhsuldarlıq və uğur əldə etmək çətindir. Eləcə də qurumun fəaliyyətinin müsbət yönümdə işıqlandırılmasında işçilərin rolu birinci dərəcəlidir. Bu baxımdan 2023-cü ilin sonunda aparılan işçi məmnuniyyəti sorğusuna əsasən, əməkdaşlar arasında məmnuniyyət göstəricisi 87 faiz, loyallıq isə 93 faizdir. Bu, şirkət üçün olduqca vacib bir göstəricidir. Çünki əməkdaşların işdən razı qalmaları ADY-nin dayanıqlı inkişafının əsas şərtlərindən biridir. Yüksək işçi məmnuniyyəti yalnız məhsuldarlığın artmasına deyil, həm də şirkət daxilində sağlam iş mühitinin qorunmasına xidmət edir.

Qeyd edək ki, Azərbaycan dəmir yollarında istifadə olunan hərəkət tərkibi əhəmiyyətli dərəcədə yenilənib. Məsələn, "Stadler Rail Group" şirkətindən ölkədaxili və Abşeron dairəvi dəmir yolu xətti üzrə marşrutlarda istifadə edilməsi üçün elektrik qatarları alınıb, bundan başqa respublikaya qatar və lokomotiv parkının yenilənməsi proqramı çərçivəsində sabit və dəyişən cərəyanla işləyən lokomotivlər gətirilib.

Yeni qatarların alınması diqqətdə saxlanılmaqla bərabər, keçən il "Azərbaycan Dəmir Yolları"nın "Stadler Rail Group" şirkəti ilə birgə imzaladığı müqaviləyə əsasən, Regional Servis Mərkəzi yaradılıb. Mərkəzdə dəmir yollarında səmərəli istifadə olunan "Stadler" markalı bütün növ nəqliyyat vasitələrinin, habelə regionun eyni növ qatarlarının təmiri, həmçinin texniki xidmətinin həyata keçirilməsi nəzərdə tutulub.

ADY-də lokomotiv və vaqon parkını artan yükdaşıma tələbatına uyğunlaşdırmaq üçün də müəyyən işlər görülüb. Bu məqsədlə yeni platformalar alınıb, Qazaxıstandan gətirilən yeni teplovozlar qatar parkına daxil edilib. Bununla bərabər respublikamızda dəmir yolları ilə yükdaşımaların həcmində böyük artım qeydə alınıb. Artımı davamlı etmək üçün mövcud dəmir yolu xətlərinin yenilənnəsi, eyni zamanda, yeni yollar salınması da diqqətdə saxlanılıb.

Burada bir məqamı da xatırlatmaq istərdik. Ölkəmiz üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin buraxılış gücünü artırmaq məqsədilə 2017-ci ildə Şərq–Qərb bağlantısının ən vacib seqmentlərindən olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun təntənəli açılışı gerçəkləşib. Yeni dəmir yolu xətti regional yükdaşımalarda məsafə və vaxt müddətini qısaldaraq Çin–Avropa–Çin nəqliyyat və ticarət dəhlizinə yeni nəfəs gətirib.

BTQ magistralı boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır, əməkdaşlıq dərinləşir. Sözügedən marşrut sabitliyə və təhlükəsizliyə xidmət göstərir, ən başlıcası isə Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və respublikamızın inkişafı üçün əlavə imkanlar yaradır. Avropa və Asiya arasında ən qısa və etibarlı yol statusuna malik BTQ fəaliyyətə başladığı vaxtdan bölgədə biznes mühitinin daha da inkişaf etməsinə, ölkələr arasında qarşılıqlı etimadın artırılmasına və qonşuluq münasibətlərinin möhkəmləndirilməsinə xidmət edir.

Xatırladaq ki, BTQ dəmir yolu xətti layihəsi Azərbaycanın Türkiyə və Gürcüstanla səmərəli əməkdaşlığının məntiqi nəticəsi olan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi birgə layihələrin davamı idi. Layihənin həyata keçrilməsi böyük geosiyasi önəm daşıdığından Azərbaycana qarşı qısqanclıqla yanaşan bəzi xarici dairələr tərəfindən onun tikintisinə müxtəlif yollarla çətinliklər törətməyə çalışılırdı. Lakin Azərbaycan, Gürcüstan və Türkiyənin güclü iradəsi və qarşılıqlı dəstəyi sayəsində layihənin reallaşdırılması mümkün oldu.

Beynəlxalq nəqliyyat bağlantısı olan Orta Dəhliz üzrə tranzit yüklərin həcminin artırılması və səmərəli idarə olunması məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolları arasında Birgə Müəssisə yaradılıb. Çin mənşəli yüklərin Orta Dəhlizlə Azərbaycan üzərindən daşınması bərpa edilib. Bu məqsədlə konteyner daşımalarının blok qatar şəklinə salınması və təyinatı üzrə birbaşa göndərilməsi təmin olunub.

Sonda onu da qeyd edək ki, bu gün Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin rəqəmsal transformasiyası ölkəmizin qlobal nəqliyyat qovşağına çevrilməsi istiqamətində atılan vacib addımlardan biridir. ADY beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif rəqəmsal həlləri gerçəkləşdirərək yüklərin real vaxt rejimində izlənməsi, yükdaşıma tariflərinin avtomatlaşdırılmış şəkildə hesablanması və yüklərin daşınmasında şəffaflığın artırılması kimi innovativ yanaşmaları reallaşdırır. Bundan başqa, gömrük prosedurlarının sadələşdirilməsi və süni zəka əsaslı təhlükəsizlik həllərinin tətbiqini diqqətdə saxlayır. ADY-nin həyata keçirdiyi bu layihələr tranzit daşımalarının səmərəliliyinin artırılmasına və ölkəmizin regionda strateji mövqeyinin gücləndirilməsinə böyük töhfə verir.

***V.BİNYATOĞLU***
***XQ***

# Dəmir yolu – tale yolu

**Yaradılmasına sənaye inqilabı dövründən başlanan dəmir yolu nəqliyyatı sərnişin və yük daşınmalarında mühüm yer tutur. Son dövrlərə aid modernizasiya və təkmilləşdirmə işləri bu sahəyə marağı xeyli artırıb. Sözsüz ki, peşəkar dəmiryolçu olmaq üçün yaxşı təhsil də vacibdir. Ölkəmizdə bu istiqamətdə təhsil verən müəssisələrdən biri də Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzidir.**



Dəmiryolçuların peşə bayramı ərəfəsində həmin mərkəzə yollandım. Məni peşə məktəbinin tərbiyə işləri üzrə direktor müavini Fuad Əliyev qarşıladı. O dedi ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2016-cı il tarixli qərarına əsasən, 2 nömrəli Bakı Peşə Məktəbi ilə Azərbaycan Dövlət Dəmir Yolu Liseyi birləşdirilib və onların bazasında bu təhsil mərkəzi yaradılıb. Mərkəzdə dəmir yolu və metropolitenə aid 10 ixtisas üzrə tədris həyata keçirilir. Bizim təhsil ocağını seçən tələbələr istehsalat təcrübəsi keçmək üçün müvafiq müəssisələrin bazasına göndərilirlər.

Söhbətimizə teplovozun quruluşu və istismarı üzrə tədrisi həyata keçirən qocaman müəllim Fikrət Ağayev də qoşularaq bildirdi ki, dəmir yolu Azərbaycan iqtisadiyyatı üçün həmişə qan damarı olub və bu sahə yarımhərbi təşkilat kimi gənclərin marağını çəkib. Dəmiryolçu peşəsinin digər cəlbedici cəhəti məzunların stabil işlə təmin edilməsidir.

Fikrət müəllim hərbi xidmətdən qayıtdıqdan sonra – 1985–88-ci illərdə bu təhsil ocağında istehsalat təlim ustası işləyib. Sonra 2015-ci ilədək Dəmir Yollarında Sərnişindaşıma departamentində çalışıb. Dərs keçmək, nələrisə öyrətmək həvəsi onu yenidən bu peşə məktəbinə qaytarıb. On ildir ki, istehsalat təlim üzrə baş ustadır.

Azərbaycan Dəmir Yolları həmişə inkişafdadır, – deyə o bildirdi. – Bu dinamika hər il bu sahəyə maraq göstərən gənclərin sayını artırır. Hətta qızlar belə karyeralarını bu istiqamətdə qururlar. Bizim məktəbdə stansiya növbətçisi, metropoliten növbətçisi, maşinist kimi ixtisaslarda qızlar da təhsil alırlar. Peşənin sirlərini tələbələrə praktiki şəkildə öyrədirik.

Həmin qızlardan biri – Mərkəzin 2-ci kursunda təhsil alan Fidan Məşədiyeva metropoliten üzrə stansiya növbətçisi olmaq arzusundadır. Bu sahəyə marağının yüksək olduğunu dedi: "Bilirsiniz, vağzalda, metroda xüsusi geyimli qadınları, qızları görəndə könlümdən onların sırasında olmaq keçib. İndi artıq arzuma çatmaq üzrəyəm, fəxr edirəm ki, bu gün mən də Dəmiryolçu Gününü qeyd edənlərin sırasındayam".

Maşinist köməkçisi olmaq istəyən Rövşən Məmmədov da tədris prosesindən razılığını dilə gətirdi:

– Ən böyük arzum polad magistrallarda şütüyən qatarları idarəetməkdir. Bu mənim üçün əsl romantikadır. Uşaqlıqdan ürəyimdə yuva salmış istəyimə çatmağıma az qalıb. Fürsətdən istifadə edərək, müəllim və ustalarımızı peşə bayramı münasibətilə təbrik edirəm.

Tədris otaqları ilə tanış olduq. Burada yaradılan şərait, tələbələrin sahə üzrə geniş biliyə malik olması üçün müxtəlif avadanlıqlar diqqətimdən yayınmadı. Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi kollektivinin və tələbələrinin bayramını təbrik edib, uğurlar arzuladım.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Ömrümüzdən keçən qatar

***(Dəmiryolçu atamın xatirəsinə)***

**Atamı yadıma salır qatarlar,**
**Dəmir yollarında azır gözlərim.**
**Vağzalı, perronu, yol qovşağını,**
**Körpünü, keçidi gəzir gözlərim.**

**Ümidim itəndə gəzirəm onu,**
**Dar gündə, çətində gəzirəm onu.**
**Atam qatar kimi şütüyüb keçib,**
**Parovoz fitində gəzirəm onu.**

**Atalı günlərim güləyən olub,**
**Atasız günlərim ağlayır indi.**
**Xəyal çəkə-çəkə gətirib məni,**
**Həsrət qatarına bağlayır indi.**

**Uca boyu vardı, iri əlləri,**
**Gözünün içindən gülərdi atam.**
**Məni çox sevərdi, az oxşayardı,**
**Hər şeyin həddini bilərdi atam.**

**Uzun qollarının göy damarları,**
**Dəmir yollarıdır – elə bilirdim.**
**Bizim ömrümüzün yük qatarları**
**Onun qollarıdı, elə bilirdim.**

**Oyuncaq parovoz görməsəm də mən,**
**Əsl parovoza mindirib atam.**
**Başının üstünə qaldırıb məni,**
**Qəlbinin üstünə endirib məni.**

**Atasız günlərim – acı həqiqət,**
**Atalı günlərim şirin bir yuxu.**
**Qarışıb parovoz tüstülərinə,**
**Göylərə çəkilib atamın ruhu...**

***Əli NƏCƏFXANLI***

# Tarixi binada qorunan tarix

**Düz 5 il əvvəl Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş Azərbaycan Dəmiryol (ADY) Muzeyi köhnə "Sabunçu vağzalı"nın binasında ("28 May" metro stansiyasının yaxınlığında) yerləşir. Ölkəmizdə ilk elektrikləşdirilmiş dəmir yolunun açılışı günündə istifadəyə verilən, 100 yaşına az qalan binadakı bu muzey dəmir yolunun tarixini yaşadır.**



Sumqayıt–Xırdalan–Bakı sürət qatarından düşüb, "28 May" metro stansiyasını keçib muzeyə doğru gəlirəm. Azərbaycan dəmir yolu işçilərinin peşə bayramı günü ərəfəsində buranı təkrarən ziyarət etmək istəyirəm. Amma muzeyin müvəqqəti olaraq təmirə bağlandığını deyirlər. "Nə yaxşı ki, bir müddət əvvəl burada olmuşam", – deyə düşünərək, ilk təəssüratlarımla bağlı yaddaşımı təzələyirəm.

"Tarixçi" binanı ilk ziyarətimdə məni elə hey uşaqlıq illərimlə bağlı həzin xatirələr müşayiət etmişdi. Yadıma düşmüşdü ki, dəmiryolçu olmuş atam məni dəfələrlə iş yerinə aparıb, buxarla işləyən parovoza da mindirib, perronda, vağzalda da gəzdirib. Vaqonların pillələrindən sallaşmağım da, qatar şütüyəndə küləyin başıma tumar çəkməyi də, relslərin və şpalların üstü ilə büdrəmədən yeriməyə çalışmağım da sanki bir kino lenti kimi gözlərim önündən keçmişdi. Uşaqkən lokomotivin kömürlə körüklənməsinə, qığılcımların ətrafa səpələnməsinə də uzun-uzadı baxmaqdan doymazdım...

Azərbaycan Dəmiryol Muzeyi görünüşcə, bir növ, qədim Şirvanşahlar sarayını xatırladır. Dekorlar, şəbəkəli pəncərələr, saat qülləsinin daşdan yonulmuş aslan təsvirləri qədimlik nişanələridir. Yeri gəlmişkən deyim ki, bu gün Bakıda işləyən və vaxtı az-çox düz göstərən tək-tük saatlar sırasında bu binanlın baş qülləsindəkiləri də qeyd etmək olar. Burası da var ki, axı, sərnişinlərin qatara minməyə və ya adam qarşılamağa tələsdiyi dəmiryol vağzalındakı saatlar da işləməsə, lap ağ olar.

Qayıdaq muzeyə. Burada 3 sərgi zalı, kino salonu, iclas və görüşlər keçirmək üçün zallar fəaliyyət göstərir. Bütün guşələri ölkəmizin dəmir yolu sahəsinin inkişaf mərhələlərinə aid müxtəlif maraqlı eksponatlar bəzəyir. 125 yaşlı Azərbaycan dəmir yolunun tarixini əks etdirən rəsmlər, foto və video materiallar, qatar modellər maraq kəsb edir. I və II Dünya müharibəsində cəbhəyə yanacaq daşıyan Azərbaycan dəmir yolunun qələbədə payı ilə bağlı faktlar səliqə ilə bir yerə cəmlənib. Sənədlər xatırladır ki, Azərbaycan dəmiryolçuları cəbhəyə əllərindən gələn köməyi göstərib, çox böyük töhfə veriblər. 1941–1945-ci illərdə Azərbaycandan döyüş ərazilərinə dəmir yolları ilə 600 mindən artıq neft və neft məhsulları ilə dolu sistern, 700 min vaqon yük göndərilib.

Muzeydə ulu öndər Heydər Əliyevin ölkəmizdə bu sahənin inkişafına göstərdiyi misilsiz xidmətlərin əks olunduğu fotoguşə zənginliyi ilə seçilir. Elə bir qədər əvvəl sərnişini olduğum sürət qatarının monitorunda da Ümummilli liderin bu sahəyə qayğısını göstərən videokadrlara baxmışdım. Bütün bunlar qədirbilənlik örnəyidir.

Şüşə arxasında tarixi polad yolların bərpa olunmuş modeli xəyalları keçmişə qanadlandırır. Prezident İlham Əliyevin muzeyə hədiyyə etdiyi möhtəşəm dəmir teplovoz maketi, digər dəyərli saxlanclar, tarixi-sənədli filmoteka, bu xidmət sahəsinin tanınmışlarının bioqrafiyalarının əks olunduğu foto və yazı materialları muzeyin zənginliyini göstərir. Burada maraqlı peşəyə aid suvenirlərin satışını həyata keçirən mağaza da mövcuddur.

Muzey materialları xatırladır ki, 44 günlük "Zəfər Yürüşü" zamanı dəmiryolçularımız cəbhəboyu zonada yerləşən stansiyalara və geriyə müxtəlif yüklər, o cümlədən hərbi texnika, qida məhsulları və yanacaq daşıyıblar. Düşməndən qənimət götürülmüş texnikalar da Bakıya dəmir yolları ilə gətirilib. Vətən müharibəsində gecə-gündüz fədakarlıqla çalışan polad magistral əməkçilərinin bir şüarı vardı: "Vaxtında cəbhəyə çatdırılan hər bir qatar düşmənə vurulmuş ağır zərbədir!"

Ziyarətçilər muzeydə onu da öyrənirlər ki, Birinci Qarabağ müharibəsi zamanı 70-dən çox dəmiryolçu şəhadət zirvəsinə ucalıb. Xocalı soyqırımından qurtula bilən əhalini sığınacaq və ilk tibbi yardımla təmin etmək üçün Bakıdan Ağdama xüsusi qatar və həkim briqadası göndərilib. Biləcəri Dəmir Yolu İdarəsində mühəndis vəzifəsində işləmiş Yunis Nəcəfov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

İkinci Qarabağ müharibəsində ADY QSC-nin 300-ə yaxın əməkdaşı döyüşüb, onlardan 125 nəfəri müxtəlif medallarla təltif edilib. Dörd dəmiryolçu isə şəhidlik zirvəsinə ucalıb. Bu əziz gündə onları – İnfrastruktur departamentinin 10 nömrəli İxtisaslaşdırılmış Dəmir Yolu Müəssisəsinin 1 saylı Bakı istismar sahəsində rəis işləmiş İlqar Cahit oğlu Vəliyevi, İnfrastruktur departamentinin "Əsaslı təmir" MMC-nin Bakıda yerləşən İstehsalat sahəsinin gözətçisi olmuş Vüqar Elxan oğlu Məmmədovu, həmin departamentin 7 nömrəli Ağstafa yol sahəsinin 1 saylı Böyük-Kəsik məntəqəsində yol montyoru Aqil Fazil oğlu Bağırovu, eləcə də Mühafizə departamentinin Yüklərin və obyektlərin mühafizəsi şöbəsinin Gəncə yüklərin və obyektlərin mühafizə komandasında atıcı vəzifəsində çalışmış Asif Yolçu oğlu Qocayevi həmkarları böyük ehtiramla xatırlayır, muzeyin ziyarətçiləri onlara aid guşədə ölməz ruhları qarşısında baş əyirlər.

Muzey işləyəndə ziyarətçi sarıdan korluq çəkmir. Çünki bura özəl ab-havası sonsuz maraq kəsb edən yerdir. Üstəlik də, "qocaman" sahənin haqqında hərtərəfli məlumat əldə etmək olur. Veteranlar, məktəblilər, Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin müdavimləri buraya daha böyük həvəslə gəlirlər. Muzeyin iclas zalında isə vaxtaşırı "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin müxtəlif yığıncaqları keçirilir.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Adım Ələsgərdir, Göyçə mahalım"

## Ünlü ozanın heykəli önündə düşüncələr

**Sentyabrın 30-da Prezident İlham Əliyevin Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirakı dövlət səviyyəsində milli mədəniyyətə qayğının, ölməz sənətkarın xatirəsinə ehtiramın daha bir təzahürü olub. Mərasimdə ölkə rəhbərinin parlaq nitqi həm bu baxımdan, həm də görkəmli aşığın Göyçə mahalının Ağkilsə kəndindəki abidəsini dağıtmış erməni vandallarına cavab baxımından hər kəsin ürəyindən xəbər verib.**



**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Rafiq Sadıxovun "İncəsənətlə bağlı düşüncələr" silsiləsindən Aşıq Ələsgərin abidəsi haqqında qeydlərini təqdim edirik:**

"Bu günlərdə uğurlu bir məkanda – paytaxtımızın estetik təsirə malik olan gözəl guşələrinin birində ucaldılan Aşıq Ələsgər abidəsi əsl ziyarət ünvanına çevrilib. Tanınmış heykəltəraş, professor Natiq Əliyev bu bədii-harmonik kompozisiyanı zəngin təxəyyül, fəlsəfi estetik düşüncə, sənətkarın mənəvi aləminə nüfuzetmə bacarığı ilə yaradıb.

Müəllif bu abidədə Aşıq Ələsgərin sevimli sazını çiyni üstünə qaldırmaqla, sanki, onun sənətsevərlərə söyləmək istədiklərini çatdırmağa cəhd edir: "Baxın, bu mənim sehrli alətim, qəlbimin açarı, misralarımın sazın simlərindəki fəryadı, barmaqlarda yaranan sevgi ahənginin dadıdır". Hər halda, mən abidəyə baxanda Aşıq Ələsgərin səsini eşidə bildim. Obrazın təsvir qamətində nikbin aşıq pozasını, miniatür rəqs elementini də görə bildim. Bu zaman Aşıq Ələsgərin bu bəndi yadıma düşdü.

*Bir sazım var yox pərdəsi, yox simi,*
*Onu çalıb kim tərpədər nəsimi?*
*Firdovsi, Füzuli , Hafiz, Nəsimi*
*Onlar da yazdığı ayə məndədir.*

Buradaca qeyd edək ki, heykəltəraş Natiq Əliyevin yaratdığı obrazların səciyyəvi cəhətlərindən biri üzün, sifətin, düşüncənin aydın duyulmasıdır. Onun abidələrində cansız daşlar canlanır, adamı düşünməyə vadar edir.

Aşıq Ələsgər abidəsində mən belə bir səssiz və sözsüz dialoqun şahidi oldum:

*– Mən gələndə dünya üzünə,*
*Evdə saz adlanan qüdrət görmüşəm.*
*Baxıb çeşmələrin qaynar gözünə,*
*Könlümdə varlığa heyrət görmüşəm.*

*– Atamı saz çalan, şeir oxuyan,*
*Anamı bayatı deyən görmüşəm.*
*Belə bir ocaqda pərvazlanan səs*
*Müqəddəs sənətə yad ola bilməz…*

Əminik ki, Aşıq Ələsgər abidəsi şəhərəmizi bəzəyən sənət inciləri içərisində öz layiqli yerini tutacaq. Sənətə və sənətkarlara qədirşünaslıq nümunəsi kimi saz və söz ocağına çevriləcək. Arzumuz budur ki, yaxın gələcəkdə Göyçə mahalında ucaldılacaq Aşıq Ələsgər kompleksinin yaradılması da heykəltəraş, professor Natiq Əliyevə və memar Malik Babayevə qismət olsun.

İnanırıq ki, həmin günlər heç də uzaqda deyil…"

*XQ*

**Babək Qurbanov – 85**

# Türkiyədə azərbaycanlı filosofa ehtiram

**Türkiyənin "İKSAD Yayın Evi" uzun illər Türkiyədə çalışmış Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndəsi – filosof, bəstəkar, musiqi estetikası üzrə fəlsəfə elmləri doktoru, Azərbaycanın xalq şairi Osman Sarıvəllinin oğlu Babək Qurbanova (Osmanoğlu) həsr olunan "Babək Qurbanov – 85" yubiley kitabını nəşr edib.**

Türkiyənin Qaziantep Universitetinin professoru İlqar Cəmiloğlu və Əli İmamverdinin qələmə aldıqları, XI fəsildən ibarət olan kitabda tanınmış elm xadiminin həyat və fəaliyyəti, yaradıcılığı geniş işıqlandırılıb və Türk dünyasının ünlü elm və sənət xadimlərinin müxtəlif illərdə yazdıqları məqalələr yer alıb. Babək Osmanoğlunun 25 il ərzində çalışdığı Ərzurum Atatürk Universiteti və Qaziantep Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyasında məhsuldar fəaliyyəti, onun bir insan, etibarlı dost, əsl alim, vətəndaş, peşəkar pedaqoq, ensiklopedik bilgiyə sahib elm xadimi kimi şəxsiyyətinin təfsilatlı təqdimatına imkan yaradır.




Kitaba Babək Qurbanovun müxtəlif elm sahələri üzrə (fəlsəfə, estetika, musiqişünaslıq, ifaçılıq, muğam sənəti, aşıq yaradıcılığı, folklor, siyasət və s.) fərqli mövzuları əhatə edən 76 elmi məqaləsi ilə yanaşı, aspirantlarına verdiyi elmi rəylər də daxil edilmişdir. Azərbaycanın xalq şairi Osman Sarıvəllinin ailəsində böyüyən alimin 13 şeiri, Babək müəllimin fotoqraf dostu Ayhan Kılıncın müxtəlif illərin xatirəsini əks etdirən 560-dan çox foto da kitabda yer alır.

Babək Qurbanov 700 məqalənin, 53 elmi kitabın müəllifi və 30-dan çox aspirantın elmi rəhbəri olmuşdur. Onun bu günə kimi yayınlanmamış 5 bəstəsi ("Mustafa bəy", "Qocalma gözəl", "Məni anla", "Dünyanın tacı", "Dedin") də ilk dəfə olaraq bu kitabda təqdim edilir.

Yubileyi münasibəti ilə yayınlanan "Babək Qurbanov–85" adlı kitab musiqişünaslar, filosoflar və professor Babək Qurbanovun yaradıcılığı ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*XQ*

# Peruda milli turizm təqdimatı



**Ölkəmiz Perunun paytaxtı Lima şəhərində keçirilən Beynəlxalq Mədəniyyət, Turizm və Təhsil Sərgisində təmsil olunub.**

Dünyanın 30-dan çox ölkəsindən səfirliklərin, eləcə də təhsil və mədəniyyət mərkəzlərinin iştirak etdiyi sərgidə Azərbaycanın zəngin mədəniyyəti və turizm potensialı nümayiş etdirilib və böyük maraqla qarşılanıb. Burada ölkəmiz haqqında, həmçinin Formula 1 Azərbaycan Qran-Prisi və noyabrda keçiriləcək COP29 kimi mühüm beynəlxalq tədbirlər haqqında məlumat təqdim olunub. Azərbaycanın turistik məkanları, turizm potensialı, Qız qalası, Şuşa qalası və digər mühüm tarixi abidələri haqqında bilgilər verilib. Milli məhsullar, o cümlədən Azərbaycan çayı, şərabları və xalçaçılıq sənəti nümunələri də ziyarətçilərə təqdim edilib.

Üç gün davam edən sərgiyə 60 mindən çox qonaq qatılıb.

*XQ*

# Qarabağ savaşının lerikli qəhrəmanı




**(əvvəli 1-ci səhifədə)**

Rayon icra hakimiyyətinin əməkdaşları, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri əvvəlcə Amid Heydərovun adını daşıyan parkı ziyarət edib, onun abidəsi və məzarı önünə çiçək dəstələri düzüblər.

Qeyd olunub ki, Amid Heydərov 1988-ci il mayın 20-də Lerik şəhərində anadan olub. 1995–2006-cı illərdə şəhid Valeh İbrahimov adına Lerik şəhər orta internat məktəbində (hazırkı inteqrasiya təlimli internat tipli gimnaziyasında) təhsil alıb, 2010-cu ildə Ali Hərbi Akademiyanı bitirən Amid Heydərov Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə taqım komandiri təyin olunub. 2015-ci ildə baş leytenant rütbəsi alıb, 4 il bölük komandiri vəzifəsində işləyib. 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin düşməndən alınmasında xüsusi qəhrəmanlıq göstərib. Bu hünərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığı əsasında ona vaxtından əvvəl kapitan hərbi rütbəsi verilib.

Amid Heydərov 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində də öndə vuruşub və mayor rütbəsinə ucalaraq, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin komandiri vəzifəsinə təyin edilib. Ordumuzun yubiley təltiflərinə və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medala layiq görülüb.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonu ərazisində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan mayor Amid Heydərovun nəşi Lerik şəhərində torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr tarixli sərəncamı ilə ona "Vətən müharibəsi qəhrəmanı" adı verilib. Həmçinin "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Anım mərasimində çıxış edənlər tarix yazan qəhrəman həmyerliləri ilə fəxr etdiklərini bildiriblər.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Hər kitab bir dünyadır

## "Dağların və çöllərin nəğmələri"

**Qazaxıstan Yazıçılar Birliyinin və Türk Dünyası Yazarlar Birliyinin sədri, Qazaxstanın Dövlət mükafatı laureatı, YUNESKO-nun Mədəniyyət və İncəsənət Akademiyasının həqiqi üzvü, görkəmli qazax şairi Uluğbek Esdauletin "Elm və təhsil" nəşriyyatında buraxılmış yeni şeirlər kitabı belə adlanır.**

Mahmud Kaşqari adına Beynəlxalq Fondun nəşrə hazırladığı kitaba dünya çaplı türk şairi və ictimai xadimi Oljas Süleymenov "Ön söz" yazıb və qeydlərində Ulugbek Esdauletin şeirlər toplusunun Azərbaycanda, böyük Nizaminin vətənində də yeni nəşrini alqışladığını bildirib. Şeirləri orjinaldan tanınmış şair-tərcüməçilər Elxan Zal və İbrahim İlyaslı çeviriblər. Nəfis tərtibatla nəşr olunmuş kitabda şairin şeirləri Azərbaycan və Qazax dillərində qoşa yer alıb.




*Mən sözü görəndə dostlaşdım haman,*
*Vurulub, ardına düşdüm hər zaman.*
*Sözün zəhərindən öldüm az qala,*
*Yenidən dirildim onun balından.*

Kitabı oxuyanlar qədim türk ellərinin dağlarının və çöllərinin ətrini duyacaq, qartalların qıy vurduğu zirvələrin vüqarını yaşayacaqlar.

## Çağdaş hekayələrimiz tatar dilində




Qardaş Tatarıstanın paytaxtı Kazan şəhərində "Çağdaş Azərbaycan hekayəsi" antologiyası işıq üzü görüb.

Tatarıstan Respublikası Dövlət Şurasının deputatı, Tatarıstan Yazıçılar Birliyinin sədri, Xalq şairi Rkail Zaydulla və Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı, DGTYB Məsləhət Şurasının sədri Əkbər Qoşalının layihə rəhbəri olduğu antologiya, "Ədəbi birgəlik" seriyasından yayınlanıb.

Tatarıstan Dövlət Şurasının Təhsil, Mədəniyyət, Elm və Milli Məsələlər Komitəsinin üzvü Rkail Zəydullanın önsözü və VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafanın "Bakıdan Kazana ədəbi və əbədi salam" uğurlaması ilə açılan antologiyanın I cildində əsasən 90-cılar ədəbi nəslinə mənsub olan 18 yazıçımızın hekayəsi toplanıb.

## Həmyerlimizin kitabı Təbrizdə

Azərbaycan yazıçısı Kamran Nəzirlinin "Sevgi ağ rəngdə olur" adlı hekayələr toplusu Təbrizin "Aydınsav" nəşriyyatında çapdan buraxılıb. Kitabda yazıçının son illər yazdığı "Yarpaqlar töküləndə", "Sevgi ağ rəngdə olur", "Mənim sevimli yaddaşım", "Qara nöqtə", "Şopenin sonatası", "Yelləncək, süpürgəçi qadın və pişik", habelə digər hekayələri yer alıb. Kütləvi tirajla çap olunan kitab artıq satışdadır.



Kitabın tərtibçisi "Aydınsav" Təbriz Nəşriyyatının müdiri Aydın Dumandır, mətnləri fars dili əlifbasına təbrizli şair və tərcüməçi Nurəddin Müsəddiq uyğunlaşdırıb.

***Ə.DOSTƏLİ***
***XQ***

Sənət korifeyləri

# Keşişlikdən qovulan dahi

## *Qəhvə, çörək və kəsmik...*

(əvvəli 1-ci səhifədə)

Keşişlər onu vaizlikdən kənarlaşdırırlar. İnsanlar ona qorxunc, bədheybət bir adam kimi baxır, onlara bənzəmədiyi üçün onunla yaxınlıqdan qaçırdılar. O isə inadla insanları kətana köçürürdü, natura ona müqavimət göstərsə də təslim olmurdu, elə hey gecə-gündüz bilmədən işləyir, peşəkarlığa yiyələnirdi. Özlərində olmayan xüsusiyyətləri onda görən adamların beyni onu həzm edə bilmirdi, o isə insana doğru elə sürətlə şığıyırdı ki, cəmiyyətdə çaxnaşma yaranırdı.





O, insanla torpaq arasında pozulmuş rabitəni öz fırçasıyla bərpa etmək istəyirdi. "İnsanı və torpağı bir-birindən ayıran kəskin xətt lazım deyil. Bütün bunlar torpağın bir-birinə keçən, bir-birindən ayrılmayan müxtəlif formalarıdır, onlar ayrılmaz olur, bu isə mahiyyətcə vahid olan iki formadır, bu formaları bir-birindən ayırmaq, demək olar, qeyri-mümkündür".

Vaxtilə o favorit idi, tezliklə Avropanın ən zəngin rəsm qalereyalarını fəth edə bilərdi. Bəs nə baş vermişdi? O, Van Qoqlar nəslinin ümidlərini niyə puç elədi?

O, dünyanın maddi nemətlərini özünə qadağan eləmişdi. Veysenbruxun dediyi kimi, o, olduqca möhkəm materialdan biçilmişdi; onu əymək, sındırmaq, getdiyi yoldan döndərmək qeyri-mümkün idi. O, hardasa İsaya bənzəyirdi, çiyninə düşən fövqəladə missiyanı özü də bilmədən comərdcəsinə daşıyırdı. O, mənəvi zülmə düçar olanlara kömək etmək arzusu ilə qıvrılırdı, ilk dəfə kömürçıxaranların rəsmini çəkmişdi, amma onların üzü tabloda əks olunmamışdı. O, bunu qəsdən etməmişdi, sonsuz tantal əzabları zavallıların üzünü qaşıyıb tökmüşdü, onların üzü yox idi.

Vinsent yer üzündə yaşamağa mənəvi rahatlıq axtarırdı, amma getdiyi bütün yerlərdə – yeraltı mağaraya bənzəyən Borinajda, Haaqada, qaynar Parisdə, qorxunc küləklərin və yandırıcı günəşin at oynatdığı Arlda, soyuq sakitliyi və ahəngdar təbiəti ilə ruha dinclik gətirən Sen-Remidə, nəhayət, ruhunun əbədi dinclik tapdığı Overdə belə dinclik və toxtaqlıq tapa bilmədi. Mendesin Rembrant haqqında dediyi sözləri eynilə Van Qoqa da aid etmək olar: "Onun həyatının kitabı bağlandı və bu, necə də gözəl kitab idi!"

Bu gözəl kitabı İrvinq Stoun yazıb – "Yaşamaq yanğısı". Bu kitabı oxuyanlar əsl yaşamaq yanğısının nə demək olduğunu anlaya bilərlər. Emil Zolya özünün "Jerminal" əsərində Borinajda kömürçıxaranlara vaizlik edən dünyəvi Məsihin obrazını yaradarkən onun məhz Van Qoq olduğu ağlına belə gəlməyib. O, özünün yaratdığı obrazla Parisdəki kafelərdən birində təsadüfən rastlaşır və söhbət əsnasında həmin vaizin Van Qoq olduğunu bilir və heyrətlə içini çəkir: "Deməli, həmin o ikinci Məsih sizsiniz!"

İrvinq Stounun adını çəkdiyimiz əsərində yazıçı ilə rəssamın görüşü ustalıqla təsvir edilib. "Yazıçı və rəssam müxtəlif vasitələrdən istifadə etsələr də, eyni fikri ifadə edirlər".

Gərgin ruhi təbəddülatlar, sarsıntılar onun əsəblərini sıradan çıxarır. Xristina onun xilas cəhdi idi, ona ilk zərbəni Ursula vurmuşdu; onun saf sevgisini rədd etmişdi. Van Qoqun inamı sarsılmışdı, hər dəfə özünütəsdiq cəhdləri uğursuzluqla nəticələnirdi.

O, əsəbindən bir qulağını kəsir, bir müddət ruhi xəstəxanada müalicə alır. Amma...bütün bunlar əbəs idi. O, artıq bütün dünyadan halallıq istəyirdi, "nə çəkmək lazım idisə, artıq hamısını çəkmişdi, nə demək istəyirdisə, artıq hamısını demişdi".

Onun bu dünyaya deyəcək yalnız bircə sözü qalırdı: indi isə mən ölmək istərdim.

Vinsent Van Qoq Overdə, Uaza çayının sahilində dəfn olundu, yatdığı torpağın ətrafında günəbaxanlar əkdilər ki, onu günün yandırıcı istisindən qorusun.

Vaxtilə Londonda rəsm satan bir tacirin Van Qoq haqqında peyğəmbərcəsinə dediyi bu sözlər az sonra öz təsdiqini tapdı:

"Gün gələcək, bu kürən dostumuz bütün Avropa incəsənətinə hökmranlıq edəcək!"

Van Qoq o günü görmədi...

***Kənan HACI,***
***yazıçı-publisist***

**Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və onun Bioresurslar İnstitutu (Gəncə) tərəfindən AMEA Gəncə Bölməsində "Təbii ehtiyatlar və tullantıların alternativ enerji kimi emalının aktual problemləri" mövzusunda iki günlük respublika elmi konfransı öz işini başa çatdırıb.**

# Gəncədə "yaşıl" konfrans




Elmi forum "Yaşıl Dünya Naminə Həmrəylik İli" və COP29 kimi tanınan Tərəfdaşlar üzrə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Bakıda keçiriləcək qarşıdakı 29-cu Konfransına həsr edilib.

Tədbirin keçirildiyi AMEA Gəncə Bölməsinin böyük akt salonunun foyesində "Yaşıl Dünya Naminə Həmrəylik İli" və COP29 mövzuları ilə səsləşən əyani vəsaitlərdən ibarət sərgi də nümayiş etdirilib.

AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev konfransın hazırki dövr üçün həlli çox vacib və aktual mövzuları əhatə etdiyinə diqqət çəkərək, bu elmi forumun müvəffəqiyyətlə keçəcəyinə ümid etdiyini bildirib.

Respublika konfransının rəhbəri və aparıcısı, AR ETN Bioresurslar İnstitutunun (Gəncə) direktoru, dosent İmran Qasımov giriş sözündə bu tədbirin yüksək elmi əhəmiyyət daşıdığını, təqdim olunmuş onlarla məruzənin elmi-nəzəri və əməli baxımdan faydalı olduğunu vurğulayıb.

Şəki Regional Elmi Mərkəzin direktoru, dosent Yusif Şükürlü çıxış edərək, rəhbərlik etdiyi elm ocağının nümayəndələrinin konfransın yüksək səviyyəli təşkilinə görə Gəncədəki həmkarlara minnətdarlığını bildirib. O, son dövrlərin qlobal texnoloji xüsusiyyətlərinin nəticəsi olaraq yaranmış ekoloji planetar problemlərin ölkəmizdən də yan keçmədiyini xatırladaraq, onların həlli yollarının araşdırılmasında elm ocaqlarının birgə, koordinasiyalı fəaliyyətlərinin vacib olduğunu diqqətə çatdırıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov xatırladıb ki, ölkə rəhbərinin şəhərimizə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsi kimi, Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl şəhərlər" Proqramına Azərbaycanda ilk olaraq məhz Gəncə şəhəri qoşulub.

İki gün davam edən konfransda 40-dan çox elmi məruzə dinlənilib.

# "Nizamişünaslıq" jurnalı nüfuzlu elmi nəşrdir

**AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin nəşr etdirdiyi "Nizamişünaslıq" elmi əsərlər jurnalı Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyanın nəzdində fəaliyyət göstərən "Filologiya elmləri və pedaqogika" ekspert şurasının qərarı ilə Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.**




"Nizamişünaslıq" elmi əsərlər jurnalı Prezident İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında sərəncamından irəli gələn tapşırıqların icrası çərçivəsində 2011-ci ildən AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi tərəfindən nəşrə hazırlanır.

Jurnal 2024-cü ildə AMEA-nın dəstəyi ilə Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) və Rəqəmsal Obyekt İdentifikatoru (DOI) standartlarını alıb.

Azərbaycan, türk, ingilis və rus dillərində məqalə qəbul edən məcmuənin redaksiya heyətinə Azərbaycanın görkəmli nizamişünas alimləri ilə yanaşı, Türkiyə, Özbəkistan, Pakistan və digər ölkələrdə dahi şairin irsinin tədqiqi ilə məşğul olan alimlər daxildir.

Jurnalın redaktoru AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarovdur.

***Həmlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

## "Bərdə İnşaat Sənaye" ASC səhmdarlarının nəzərinə!

29 noyabr 2024-cü il saat 11.00-da Bərdə şəhəri, Heydər Əliyev prospekti 122 nömrəli ünvanda "Bərdə İnşaat Sənaye" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

**2.** Mənfəət və zərərin bölüşdürülməsi.

**3.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – 050-403-99-58.

Ünvan– Bərdə şəhəri, Heydər Əliyev prospekti 122.

***"Bərdə İnşaat Sənaye" ASC-nin icraçı direktoru***

Maraq dünyamız

# Şirvan və Soyuqbulaq külmələri



**İxtioloqların fikrincə, ölkəmizdə 112 növ və yarımnöv balıq müəyyən edilmişdir. Onların iki növü endemikdir. Yəni onlara ancaq Azərbaycan ərazisində rast gəlinir. Şirvan külməsi və Soyuqbulaq külməsi adlı bu balıqlar çəkilər fəsiləsinə aiddir. Xatırladaq ki, Azərbaycanda 15 dəstəyə aid balıq növləri mövcuddur ki, bunların da bir neçəsi ölkəyə gətirilərək iqlimləşdirilmişdir. Şirvan külməsi və Soyuqbulaq külməsi isə heç yerdən gətirilməyib və heç yerə aparılmayıb.**

Alimlərin fikrincə, külmələrə aid balıq növlərinin böyük əksəriyyəti Aralıq dənizi akvatoriyasında yayılmışdır. Azərbaycan ərazisində isə onların bir çox növləri yayılmışdır.

Şirvan külməsi Qəbələ rayonunun Türyançay sistemindəki bulaq sularında (Nic və Çuxur Qəbələ kəndlərində olan bulaqlarda) yayılmışdır. Təəssüf ki, həm arealın məhdudluğu, həm də onların yayıldığı sahələrin çirkləndirilməsi, qurudulması və başqa səbəblər (antropogen təsirlər) bu növə təhlükə yaradır. Xəbərdarlıq edilir ki, Şirvan külməsinin endemik növ olmasını və məhdud sahədə yayılmasını nəzərə alaraq, onun yayıldığı ərazi xüsusi mühafizə olunan ərazi elan olunmalıdır.

Mütəxəssislər yazırlar ki, Şirvan külməsi xarici görünüşcə Soyuqbulaq külməsinə oxşayır. Lakin ondan bir sıra əlamətlərinə görə fərqlənir. Soyuqbulaq külməsinin başı uzun, alnı enli, gözdalı məsafə az olur. Şirvan külməsində ağzın zirvəsi gözün alt kənarından yuxarı səviyyədə, Soyuqbulaq külməsində isə gözün alt kənarından aşağı və ya onunla eyni səviyyədə yerləşir. Birincidə üzmə qovuğunun dal kənarı girdə, ikincisində isə sivri olur.

Şirin su balığı olan Şirvan və Soyuqbulaq külmələri meşəlik yerlərdəki bataqlığa bənzər bulaq sularında yaşayır. Dibi lilli, içərisində qamış bitən, zəif sürətlə axan çayları çox sevir. Əlavə edək ki, Soyuqbulaq külməsi ilk dəfə ixtioloq alim Yusif Əbdürrəhmanov tərəfindən – 1950-ci ildə Ağstafa rayonu ərazisində, Kür çayı akvatoriyasında aşkarlanmışdır.

***İ. QAÇAYEV***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 225 (30629) 13 oktyabr 2024-cü il, bazar

## İdman xəbərləri

# "Böyük dəbilqə"də 2 medal



**Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə cüdo üzrə keçirilən "Böyük Dəbilqə" turnirində komandamız 2 medal qazanıb.**

Millimizin üzvü Zelim Tçkayev (81 kq) bütün qarşılaşmaları qalib başa vuraraq finala yüksəlib. Həlledici mərhələdə də rəqibindən güclü olaraq qızıl medal qazanıb.

Komandamızın digər üzvü Acelya Toprak (57 kq) bürünc medala sahib olub.

# U-21 millimiz Şimali İrlandiyaya uduzub



**İyirmi bir yaşadək futbolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələ matçında məğlub olub.**

Samir Əliyevin baş məşqçisi olduğu yığma Şimali İrlandiyanın qonağı olub.

Qarşılaşma rəqibin qələbəsi ilə yekunlaşıb - 0:5.

Qeyd edək ki, 9 görüşdə 10 xal toplayan Şimali İrlandiya 4-cü, 3 xala malik Azərbaycanın U-21 yığması isə sonuncu – 6-cı pillədə qərarlaşıb.

# "Payız turniri"nin qalibləri



**AFFA və Azərbaycan Əlillər Futbolu Federasiyasının birgə təşkilatçılığı ilə eşitmə məhdudiyyətli əlillər arasında futzal üzrə ənənəvi "Payız turniri" keçirilib.**

Bakı İdman Sarayında təşkil edilən yarışda "Azəri" komandası 1-ci yeri tutub.

"Ümid" 2-ci, "Bakı" isə 3-cü pillələrdə qərarlaşıblar.

Turnirin nəticələrinə görə, Elvin Şeydəbəyov ("Azəri") 11 qolla yarışın ən məhsuldar oyunçusu olub. Onun komanda yoldaşı Yusif Əzimzadə ən yaxşı qapıçı seçilib. Turnirin ən yaxşı futbolçusu adına isə Amil Sadıqov ("Ümid") layiq görülüb.

***L.QURBANOVA***
***XQ***

## Hekayə

# Ermәni itinin ağ günü

**Həyətdə həmişəkitək qələbəlik yaşanırdı. Bu səhnədən sevindi, yeni gələnlərin qabağına qaçdı. Birdən öz-özünə düşündü ki, bu adamlar erməni deyillər. Yəni xüsusi yalmanmağına ehtiyac yoxdur, onsuz da onu ac qoymayacaqlar.**

İçərisində köhnə evi olan, hazırda restoran kimi fəaliyyət göstərən həyətdə ötən dörd ilin iki ilində məşəqqət yaşadığını, yeməyə güclə bir şey tapdığını xatırladı. Amma daha əvvəlki yeddi ildə də düz əməlli ömür sürməmişdi, dəfələrlə döyülmüşdü. O günləri kino lenti kimi gözünün önündən keçirmək onun üçün son dərəcə böyük əzabdır. Hərdən bu əzabı yaşamağa isə sadəcə məhkumdur. Zəhrimara qalmış yaddaş...

Amma buğlamanın qoxusu burnunun deşiklərindən girib ötənləri yada salarkən gözlərindən təzəcə axıtmağa başladığı yaşı qurutdu. Canına təpər gəldi. Ehmalca yeni gələnlərin oturduqları masaya yaxınlaşdı. Öz-özünə "Buğlama sifariş ediblərsə, yəqin iri sümükləri olacaq", – düşündü. Bu təsəvvürlə masadakıları seyr edərkən, nifrət etdiyi sual verildi: Ayə, bu, erməni itidir? Səslənən cavab isə şəklənmiş qulaqlarını bükməsinə səbəb oldu: – Hə, hə, ermənilərdən qalıb.

Qorxurdu ki, erməni iti olduğuna görə döyülər. Amma heç vaxt döyülməmişdi. Hələ eşitdiyi bir cavab canına yağ kimi yayılmışdı: – Bu torpaqlarda ermənilərin ancaq itləri qala bilər! Deməli, onun üçün təhlükə yoxdur, istədiyi qədər yaşaması mümkündür. Lənətə gəlmiş ömür isə sona çatır. Qocalıb, artıq 11 yaşındadır. Hərçənd özündə vəziyyətlə barışmamaq əzm və təpərini hiss edir. Buğlamanın sümüyünü də eyni əzmlə gözləyirdi.

Həyətə insan nəfəsi iki il əvvəl dəymişdi. Həmin gün vaxtilə eşitdiyi güllələrin qulaqdeşən səslərindən çox-çox dəhşətli mənzərə ilə rastlaşmışdı. Ahıl bir kişi və qadın rəngi getmiş dəmir darvazadan içəri dizləri üstə, iməkləyərək, torpağı öpə-öpə daxil olmuşdular. Tezliklə bu cütlük həyətdəki köhnəlmiş evin daşlarına sarılmışdı. İt ağlı ilə səhnənin təsirindən kövrəlmiş, qadına təskinlik vermək üçün onun qarşısında dayanıb quyruğunu bulamışdı. Bu an ağladığını gizlətməyə çalışan kişinin qabar əlinin sığalını belində hiss etmişdi. Çox xoşlanmış və axırıncı dəfə nə vaxt sığallandığını yadına salmaq istəmişdi. Bacarmamışdı, sanki bu hissi heç yaşamamışdı.

***

Həyətdə kiminsə ağladığını da görməmişdi, ancaq qara-qışqırıq səsləri duymuşdu. Sonuncu dəfə eşitdiyi səsləri xatırladı. Bu, əvvəlki hay-şivənlərdən deyildi. Hiss edirdi ki, nə isə daha böyük bədbəxtlik üz verib. Evdəkilər çaş-baş halda ora-bura qaçır, əllərinə keçən hər şeyi götürüb aradan çıxırdılar. Onlara qoşulub getmək istəmiş, ancaq son anda fikrindən daşınmışdı. Axı bu adamlar ona xoş gün yaşatmamışdılar. Bir sözlə, gedənlərə qoşulmağın yaxşı heç nə vəd etmədiyini ağlına yeritmişdi. Eyni zamanda, ətrafda güllə səslərindən qulaq tutulduğundan, qorxmuş, həyətdən çıxmağa cürət etməmiş, evin bir küncünə sığınmışdı.

Çox keçməmiş güllə səsləri daha yaxından eşidilməyə başlamışdı. Təlaşı görünməmiş dərəcədə artsa da, yenə həyəti tərk etmək barədə düşünməmiş, birtəhər aclığa dözmüşdü. Güllə səslərinin tədricən azalması ilə aclıq hissinin daha da artdığını hiss etmişdi. Həyətdən çıxsınmı, çıxmasınmı? – Naçar duruma düşmüşdü ki, elə bu an darvazanın qapısı təpiklə açılmışdı.



Əvvəlcə içəri girən olmamışdı. Daha sonra əlində o vaxtadək heç vaxt görmədiyi aləti tutmuş, başında dəmir papaq, üzərində qeyri-adi geyim olan bir adamın ehtiyatla həyətə daxil olduğunu, cəld şəkildə o tərəf-bu tərəfə iti nəzərlərlə baxdığını seyr etmişdi. Tezliklə, eyni qiyafəli daha bir neçə şəxs gəlmişdi. Adamların danışıq tərzi həyətdə yaşayan ermənilərin danışığından tamam fərqlənmişdi. Həmin ərəfədə həyətin sakini olan ermənilərdən birinin o birinə "bizi it kimi qovacaqlar" deməsini xatırlamışdı. Bu fikir ona qəribə gəlmişdi. Axı it olan odur. Adamı niyə it kimi qovsunlar? – deyə öz-özünə sual vermiş, ancaq tez də döyüldüyü anları yada salaraq, ürəyində "sizə o da azdır" fikirləşmişdi…

Həyətə erməniləri it kimi qovanlar gəlmişdilər. Deməli, əsl it elə qovulanlar idi. Gələnlərdən biri isə ona yaxınlaşıb möhkəm səslə, bir qədər də gülümsəyərək belə demişdi: Salam əəə, Vazgen! Mənə niyə Vazgen deyirlər, axı Tuzikəm, - deyə öz-özünə mırıldanmışdı. Doğrudur, sonradan hər həyətə girən ona "Vazgen" dediyindən, bu adla barışmışdı. Həm də ona görə barışmışdı ki, gələnlər yeməyə nə isə verir, onu ac qoymurdular. Ən əsası isə döymürdülər.

İki il sonra gördüyü qoca kişi ilə qadın özlərinə qapılmışdılar. Onlar hərəsi bir tərəfdə ağladıqdan sonra bir-birinə sarılaraq möhkəm hönkürmüşdülər. O an qeyri-adi görkəmli, hündür boylu adamlardan birinin də əlindəki aləti küncə qoyub gözündən yaş axıtdığını yadına salmışdı. Heç iki gün keçməmiş bu şəxs də, onun yanındakılar da sevinclə bir-birilərinə sarılmışdılar. Tuzik isə güllə səslərinin onların əlindəki alətdən çıxdığını görmüşdü. Ancaq qorxmamış, həyətə doluşmuş, əllərindəki avtomatlardan göyə atəş açan insanları seyr etmişdi. Anidən atasından eşitdiyi, ona da öz atasının danışdığı bir əhvalatı xatırlamış və duyuq düşmüşdü. Qeyri-adi geyimdəki şəxslər azərbaycanlılardır. Elə sonradan həyətə daxil olan və səssizliyi hönkürtüləri ilə pozan qocalar da başqaları deyildi.

İndi Tuzik həyətin azərbaycanlıların restoranı kimi fəaliyyət göstərdiyini bilir. Artıq erməni iti azərbaycanlıların sayəsində ömrünün ən gözəl anlarını sümük yeməklə keçirdiyinin fərqindədir. Üstəlik, heç kəs Tuziki "Vazgen" çağırmırdı. Axı qocalar "Vazgen" adının çəkilməsini qəti şəkildə qadağan ediblər. Onların həyəti restoran kimi işlədən övladları və nəvələri də valideynlərinin sözlərinə qulaq asır, gələnləri qoyulmuş qadağalarla məlumatlandırırlar.

Atası babasının da Tuzik adını daşıdığını demişdi. Demişdi ki, baba Tuzik vaxtilə azərbaycanlıların itləri ilə dostluq edib, ən yaxın dostu Toplan olub. Atası babasının Toplanın çox güclü və qorxmaz olduğunu, baba Tuziki dəfələrlə digər erməni itlərinin dişində parçalanmaqdan qoruduğunu da demişdi. Toplanın gedişindən sonra baba "Tuzik"in ağır günləri başlayıbmış. Həm tez-tez əraziyə sonradan gəlmiş ermənilərin itləri tərəfindən boğulurmuş, həm də ac-yalavac qalırmış. Baba Tuzik Toplanlı günlərin xiffətini çəkərkən, onu dostundan güllə səslərinin ayırdığını yada salırmış. Axırıncı səs daha dəhşətli olub. Toplan sahibinin cansız bədəninə sarıldıqdan sonra sakinlərə qoşulub həyəti tərk edib.

Atası ölməzdən əvvəl bala Tuzikə öz atasının dostu olan "Toplan"nın vaxtilə yaşadığı həyəti göstərmişdi. "Tuzik" həm o həyətdə, həm də öz yaşadığı yerdə sonradan ermənilərin məskunlaşmalarını görməsə də, bu barədə atasından eşitmişdi. İndi isə torpağın əsl sahibinin kim olduğunu çox gözəl bilirdi. Çünki azərbaycanlılar buradakı hər şeyə, onun özünə də qayğı ilə yanaşırdılar.

Nəhayət, restorana yeni gələnlər hərəkətə keçərək, buğlamanın yekə sümüklərini ona atdılar. Sümüklərdən birinin üstündə ətin qaldığını görən Tuzik, adamlar həyətə daxil olarkən, keçirdiyi sevinc hissinin iki qatını yaşadı. Tezliklə daha bir neçə sümüyü də gəmirdi. Qarnını doldurduqdan sonra erməni sahiblərinə qoşulub ərazini tərk etmiş itlərin halına acımağa başladı. Düşündü: Azərbaycanlıların atdıqları sümüklə yaşamaq mümkündürsə, niyə getdilər? Guya, getməklə ağ günə çıxacaqlar? Axı özünü nümunəvi aparan Tuzik sümüklə bərabər kabab da dadırdı. Ömrünün sonunadək başqa yeməklərdən də dadacağına əmin idi. Amma bir balaca narahatlığı da var idi. Quduzluq iynəsinin vurulması gecikdiyindən, hərdən əndazədən çıxması onda bədbinlik yaradır, həyatdan küsdürürdü. Atasından əndazədən çıxan itlərin başına hansı oyunun açıldığını eşitmişdi. İt kimi qovulmaq da istəmirdi. Ömrünün son günlərinədək bu torpaqda yaşamaq arzusunda idi.

***Əvəz RÜSTƏMOV***

# Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 15-19°, gündüz 19-22° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət gecə 70-75 , gündüz 55-65 faiz olacaq.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 17-22°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Sağlamlıq

# Qaragilə – məlhəmdir hər gilə

**Qaragilə dadlı bir meyvə kimi həm də sağlamlıq üçün çox faydalıdır. Onun tərkibində bol miqdarda vitaminlər, minerallar və antioksidantlar var. Qaragilənin əsas faydalarından bəziləri bunlardır:**

1. Qaragilədə olan antosiyaninlər (qırmızı, bənövşəyi və mavi görünüşlü bitkilərə rəng verən piqment) və digər antioksidantlar göz sağlamlığına müsbət təsir göstərir. Bu maddələr gözlərin yorulmasını azalda, gecə görməni yaxşılaşdıra və retinaya dəstək olur.

2. Qaragilədəki güclü antioksidantlar bədəndə sərbəst radikalların səbəb olduğu hüceyrə zədələnməsinin qarşısını alaraq xərçəng və ürək xəstəlikləri kimi xəstəliklərin riskini azalda bilər.

3. Qan təzyiqini tənzimləməyə, pis xolesterolu (LDL) azaltmağa və ürək-damar sisteminin ümumi sağlamlığını dəstəkləməyə kömək edir.

4. Tərkibində olan C vitamini və digər qida maddələri immunitet sistemini gücləndirərək bədənin infeksiyalara qarşı müdafiəsini artırır.

5. Qaragilədə olan pəhriz lifləri həzm prosesini yaxşılaşdırır, qəbizliyi aradan qaldırmağa və ümumilikdə, həzm sistemini tənzimləməyə kömək edir.

6. Araşdırmalar göstərir ki, qaragilə beyindəki neyronların fəaliyyətini dəstəkləyərək yaddaşın və ümumi kognitiv funksiyaların yaxşılaşmasına kömək edə bilər. Həmçinin yaşa bağlı beyin funksiyalarının azalmasını yavaşlatmaqda da rol oynaya bilər.



7. Tərkibindəki antioksidantlar və vitaminlər dərini gənc və sağlam saxlamağa kömək edir. Qaragilə tərkibli maskalar və ya qida əlavələri dərini qidalandırır və qocalma əlamətlərinin qarşısını alır.

Qaragiləni həm təzə, həm də qurudulmuş halda yemək və müxtəlif salatlara, desertlərə əlavə etmək olar.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2320
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00